www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 aprel 2018-ci il Çərşənbə axşamı № 88 (6977) Qiyməti 60 qəpik

**Xəbər**

## Prezident yeni nazirlər və komitə sədrləri təyin etdi

yazısı səh.2-də

**Gündəm**

### Azərbaycan prezidenti Türkiyəyə səfəri ərəfəsində İsraildən dəvət aldı



Sabah İlham Əliyev Ankaraya gedir; Netanyahu da prezidentə dəvət göndərdi

yazısı səh.8-də

### Heydər Əsədovun və Səlim Müslimovun vəzifədən getməsini şərtləndirən amillər

yazısı səh.4-də

### Hüseyn Abdullayevin vəkili danışdı - "o məsələlərə qarışmıram"

yazısı səh.3-də

### İki iraqlı deputat Hüseynbala Mirələmovun 396 minlik "1001 gecə" oyununa düşüb

yazısı səh.6-da

### Seçkidən sonra müxalifət "yoxa çıxıb"

yazısı səh.4-də

### Araz Əlizadənin ildə bir neçə dəfə başına düşən "Rəsulzadə daşı"...

yazısı səh.10-da

### "İstənilən məmur haqda dosye İlham Əliyevin masası üzərindədir" - Zahid Oruc

yazısı səh.7-də

### Qaradağı Dubaya çevirəcək nəhəng layihə...

yazısı səh.12-də

### "Tibbi sığorta haqqında" Qanuna dəyişiklik təsdiqləndi

yazısı səh.2-də

### Səudiyyə Ərəbistanında çevriliş xofu - prosesin pərdəarxası

yazısı səh.13-də

### Qonşularımız milli pulları ilə alverə keçsə, Azərbaycana təsiri nə olar...

yazısı səh.13-də

# İLHAM ƏLİYEV AZƏRBAYCANI NECƏ XİLAS ETDİ - NÜMUNƏ

2005-ci ildə ölkəmizdə hər hansı "rəngli" və ya "rəngsiz inqilablar" dövrü başa çatdı, ölkə siyasi sabitlik yoluna kurs götürdü; prezident Azərbaycanı Avropa Birliyi və Qərbdə "Putinin SSRİ"si adlandırılan Avrasiya İttifaqına ona görə üzv etmədi ki...




yazısı səh.5-də

## Xocalı soyqırımının əsas səbəbkarı Ermənistanda hakimiyyətdən qovuldu

Düşmən ölkədə xalq cinayətkar xuntaya yox dedi; ermənilər dövləti öz biznesinə çevirən mafioz klandan canını qurtardı

yazısı səh.11-də



*Əli Həsənov:*

**"Dövlət Departamentinin Azərbaycandakı vəziyyətə münasibəti həmişəki kimi yenə də tendensioz xarakter daşıyıb"**

yazısı səh.9-da



*Elxan Süleymanov:*

**"AŞPA ölkəmi böhtanlarla təhdid etmək əvəzinə, vacib problemlərin aradan qaldırılması ilə məşğul olmalıdır"**

yazısı səh.9-da



*Rauf Arifoğlu:*

**"Hərbi xunta daha çox erməni xalqına zülm etdi"**

yazısı səh.5-də



# Prezident yeni nazirlər və komitə sədrləri təyin etdi

## Nazirlər Kabinetində boş qalmış vəzifələrə təyinatlar oldu

**Prezidenti İlham Əliyev "Nazirlər Kabinetinin yeni tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli sərəncamına əlavələr edilməsi barədə sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, aşağıdakı şəxslər Nazirlər Kabinetinin üzvləri təyin edilib:

1.1. Ekologiya və təbii sərvətlər naziri - Muxtar Bahadur oğlu Babayev;

1.2. Gənclər və idman naziri - Azad Arif oğlu Rəhimov;

1.3. Mədəniyyət naziri - Əbülfəs Mürsəl oğlu Qarayev;

1.4. Müdafiə sənayesi naziri - Yavər Talıb oğlu Camalov;

1.5. Səhiyyə naziri - Oqtay Kazım oğlu Şirəliyev;

1.6. Təhsil naziri - Ceyhun Əziz oğlu Bayramov;

1.7. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri - Hicran Kamran qızı Hüseynova;

1.8. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri - Fuad Rauf oğlu Muradov;

1.9. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri - Mübariz Qəhrəman oğlu Qurbanlı;

1.10. Dövlət Gömrük Komitəsinin sədri - Səfər Məmməd oğlu Mehdiyev;

1.11. Dövlət Statistika Komitəsinin sədri - Tahir Yaqub oğlu Budaqov;

1.12. Əmlak Məsələləri Dövlət Komitəsinin sədri - Kərəm Əvəz oğlu Həsənov;

1.13. Dövlət Turizm Agentliyinin sədri - Fuad Hümbət oğlu Nağıyev;

1.14. Qida Təhlükəsizliyi Agentliyinin sədri - Qoşqar İlahi oğlu Təhməzli;

1.15. Dövlət Miqrasiya Xidmətinin rəisi - Vüsal Əfqan oğlu Hüseynov;

1.16. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi - Arzu Yusif oğlu Rəhimov.

# "Tibbi sığorta haqqında" qanunda dəyişiklik təsdiqləndi

**Prezident İlham Əliyev "Tibbi sığorta haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanunu imzalayıb.**

"Report" xəbər verir ki, dəyişikliyə əsasən, mülkiyyət formasından asılı olmayaraq, müəssisə, idarə və təşkilatlar tərəfindən icbari tibbi sığorta müqaviləsinin bağlanılmasından imtina edilməsi, sığorta haqlarının hesablanması üçün məbləğlərin gizlədilməsi və ya aşağı salınması, ödənilməsi müddətlərinin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda inzibati məsuliyyət yaradır.

# Müqavilə ilə işə qəbul olunmaq istəyən müəllimlərin müsahibəsinə başlanılır

**Ümumi təhsil müəssisələrində müddətli əmək müqaviləsi əsasında işləyən müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması üzrə elektron sənədlərin qeydiyyatı başa çatıb.**

Təhsil Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, elektron qeydiyyat http://www.miq.edu.az/muqavile/ saytı vasitəsilə həyata keçirilib.

Müsahibədə iştirak etmək üçün qeydiyyatdan keçən ümumilikdə 2282 nəfər müəllimdən 763 nəfərinin elektron ərizəsi təsdiqlənib.

Müddətsiz əmək müqaviləsi əsasında işə qəbul olunmaq istəyən müəllimlər üçün müsahibələr Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən keçiriləcək.

Müsahibələrdə 2016-2017-ci və 2017-2018-ci tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək zəruri keçid balını toplayan və vakant yerlərdə mövcud qaydalar çərçivəsində müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlər iştirak edə bilər.

Elektron ərizəsi imtina edilmiş müəllimlərin imtina səbəbləri, ərizəsi təsdiq edilən namizədlərin isə müsahibələrinin keçirilmə yeri və tarixi barədə məlumat şəxsi səhifələrinə göndərilib.

Müsahibələr 26-27 aprel 2018-ci il tarixlərində təşkil olunacaq.

Müsahibə proqramı və materialları barədə məlumatlar http://www.miq.edu.az/muqavile/ saytında yerləşdirilib.

# İnam Kərimov Kənd Təsərrüfatı Nazirliyinin əsas fəaliyyət prinsiplərini açıqladı





**Aprelin 23-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yeni kənd təsərrüfatı naziri İnam Kərimovu kollektivə təqdim edib. R.Mehdiyev ona fəaliyyətində uğurlar arzulayıb.**

Yeni təyin olunmuş kənd təsərrüfatı naziri İnam Kərimov nazirliyin kollektivinə təqdim olunarkən öz çıxışında 3 əsas fəaliyyət prinsiplərini açıqlayıb.

Nazilrikdən "APA-Economics"ə verilən məlumata görə, nazir fəaliyyət prinsiplərində düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq, (şəffaflıq, səmərəlilik, hesabatlılıq) innovasiyaların tətbiqinin əsas götürüləcəyini qeyd edib.

Fermerlərin qarşılaşdıqları problemlərin araşdırılması və həlli yollarının tapılması, diqqət və qayğını artırmaqla onlara daha yaxın olmaq, innovasiyaların xüsusilə "Elektron Kənd Təsərrüfatı" layihəsinin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçiriləcəyini vurğulayıb.

Qeyd edək ki, İnam İmdad oğlu Kərimov kənd təsərrüfatı naziri vəzifəsinə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli sərəncamı ilə təyin edilib.




# DTX Ələtdə əməliyyat keçirdi - gizli ibadət kompleksi aşkarlandı

**Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilmiş birgə tədbirlər nəticəsində Bakı şəhəri Qaradağ rayonu Ələt qəsəbəsi Şıxlar bağ massivində yerləşən Azərbaycan Respublikasının vətəndaşı Rəhmanlı Rəhman Mikayıl oğluna məxsus bağ sahəsində qeyri-ənənəvi dini təriqətin üzvləri tərəfindən gizli yaradılmış, azyaşlıların da dini ayinlərə cəlb olunduğu qanunsuz dini ibadətgah-dərsxana kompleksi aşkar edilib.**

DTX-dan AzVision.az-a verilən xəbərə görə, qanunla müəyyən edilmiş qaydada qeydiyyata alınmadan "məscid" adı altında gizli fəaliyyət göstərən həmin ərazidən dini ayrı-seçkiliyin təbliği məqsədilə qanunsuz yayılan çoxsaylı dini ədəbiyyatlar aşkar edilərək götürülüb.

Qeydə alınmış qanun pozuntuları müvafiq qaydada sənədləşdirilərək, qanunsuz dini ibadət-tədris sahəsinin fəaliyyəti dayandırılıb. Hazırda Dövlət Təhlükəsizliyi Xidmətində araşdırmalar davam edir.



# «Bakcell» biznes qurmaq istəyən gənclərin xəyallarını gerçəkləşdirir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyinin himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq üçün maliyyə vəsaiti ayırıb. Bu dəstək sayəsində 3 nəfər gənc öz kiçik bizneslərini qurmaq imkanı əldə edib.**

**«Bakcell»in dəstəyi sayəsində icra olunan "Gənclərin Karyera və İnkişaf Mərkəzi" layihəsində öz biznes planı ilə fərqlənmiş və fəaliyyətə artıq hazır olan bizneslərdən birinin açılışı olub. "Floristika Gül Dükanı"nın açılış mərasimində "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası, «Bakcell» şirkətinin nümayəndələri, ictimai xadimlər və kütləvi informasiya vasitələri nümayəndələri iştirak ediblər. Yeni dükanın sahibi Kazımli Seymur dövlət uşaq müəssisəsində boya-başa çatıb və gənc vaxtlarından gül mağazasında köməkçi işləyib. Biznesmen olmaq arzusu ilə 7 il ərzində işçi kimi gül biznesi ilə məşğul olan Seymur öz gül mağazasını açmağa iddialı olub və mükəmməl biznes plan tərtib edərək layihədə qalib olub.**

**«Bakcell» şirkəti ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahın yaxşılaşdırılmasına yönəlmiş bir çox layihəni uğurla həyata keçirir. Biz çox şadıq ki, "SOS Uşaq Kəndləri-Azərbaycan" ilə uzun illər öncə başlanılmış əməkdaşlığımız öz bəhrəsini verməyə davam edir və dəstək göstərdiyimiz gənclərin artıq biznes sahiblərinə çevrilməsini görməkdən qürur duyuruq" deyə «Bakcell» şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.**

**"Mən uzun illərdir ki biznes qurmaq və gül dükanı açmaq arzusunda idim və bu gözəl layihə sayəsində mənim xəyallarım gerçəyə çevrilib. Əminəm ki, bu təcrübə gələcək həyatima da öz töhfəsini verəcək. Mənim üstümdə əməyi olan "SOS Uşaq Kəndləri-Azərbaycan" təşkilatına və "Bakcell" şirkətinə sonsuz təşəkkürümü bildirirəm", deyə Seymur Kazımlı bildirib.**

**Qeyd edək ki, layihənin ötən il həyata keçirilən birinci mərhələsində "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyasının himayəsində olan 15 gənc "Öz biznesinə başla və təkmilləşdir" adlı təlimlərdə iştirak edib. Qiymətləndirmə nəticəsində ən yüksək nəticələr nümayiş etdirən 3 uğurlu biznes layihəsi «Bakcell» şirkəti tərəfindən maliyyələşdirilib. Bu biznes layihələri Bakı şəhərində "Floristika gül dükanı" və "Çay evi", Gəncə şəhərindən isə "Meyvə bazarı" layihələridir.**

**"Bu layihəyə dövlətin də yaxından dəstəklədiyi Beynəlxalq Əmək Təşkilatının (BƏT) özünəməşğulluq proqramının bir hissəsi kimi baxmaq lazımdır. Mən çox şadam ki, «Bakcell» şirkəti ilə başladığımız bu təşəbbüs artıq öz bəhrəsini verməyə başlayıb. Biz bu istiqamətdə əməkdaşlığımızı davam etdirəcəyik və mən inanıram ki, gələcəkdə daha çox gənc insan bu layihədən faydalanacaq", deyə "SOS Uşaq Kəndləri-Azərbaycan" təşkilatının Milli Direktoru Rəşad Hüseynov bildirib.**

**Qiymətləndirmə zamanı əsas meyarlardan biri biznes planın düzgün hazırlanması, ideyanın real bazar şərtlərində özünü nə qədər doğruldacağı, bu işdə müraciət edənin təcrübəsi və biznes planı təqdim edən gəncin sosial durumu nəzərə alınıb. Qalib gələn gənclərin hər 3-ü təqdim etdikləri biznes ideya üzrə iş təcrübələri var.**

**Xatırladaq ki, «Bakcell» şirkəti 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir.**



# Azay Quliyev Sərkisyanın istefasına münasibət bildirdi

**Millət vəkili, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev Ermənistanın baş naziri Serj Sərkisyanın istefasına münasibət bildirib.**

Musavat.com xəbər verir ki, o tvitter hesabında bununla bağlı yazıb. Sitat: "Ümid edirəm ki, Qarabağ münaqişəsi dalğasında qanla hakimiyyətə gələn Serj Sərkisyanın istefası erməni xalqının reallığı düzgün qiymətləndirərək qonşuları ilə münasibətlərə yenidən baxmağa, bölgədə ədalətli, davamlı sülhün bərqərar olması üçün adekvat addımlar atmağa imkan verəcək".

❑ Musavat.com

# "18 ildir AŞPA-dayam, kimsə məni korrupsiyada ittiham edə bilməz" - Səməd Seyidov

**"Bu gün AŞPA-da çıxış etmək asan deyil. Burada bizim ölkəmizi tamamilə ədalətsiz şəkildə təqdim etmək cəhdləri var".**

APA-nın məlumatına görə, bu sözləri Avropa ŞurasıParlament Assambleyasının (AŞPA) yaz sessiyasında çıxışı zamanı Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov adının AŞPA-nın müstəqil Araşdırma Qrupunun korrupsiya ilə bağlı hesabatına daxil edilməsi ilə bağlı çıxışında deyib.

"Mən bu gün nələrisə pozanların siyahısına daxil edilmişəm. Əvvəl iclasa gəlmək istəmirdim. Sonra gördüm ki, hadisələr başqa istiqamətdə cərəyan edir. Hesabat hər kəs üçün açıqdır. Orada 43-cü maddəyə baxın. Deyilir ki, cənab Seyidovun hansısa korrupsiya halı ilə əlaqəsi yoxdur. Hamin hesabatda görünür ki, mən araşdırma qrupu ilə əməkdaşlıq etmişəm, onlarla 2-3 saat danışmışam. Guya mən davranış kodeksini pozmuşam. Çünki kimsə mənə e-mail atıb, amma mən yox. 18 ildir AŞPA-dayam. Biz hazırda Prosedur Qaydaları komitəsinin qərarını gözləyirik.

Amma görürəm ki, siz burada qərara kimi hesabatla bağlı təcili müzakirə aparırsınız. 18 ildə kimsə məni korrupsiyada ittiham edə bilməz. Amma məsələ mənim ölkəmlə bağlıdır. Ölkəm sivil dünya ilə birgə yaşamaq istəyir. Müəyyən proses gedir və mən bundan narahatam. Detallara baxın və obyektiv olun. Anlayın ki, məsələ insanlar deyil. Məsələ müstəqil cəmiyyət yaratmaq istəyən yeni müstəqil ölkələr barədədir. Onda sizə hər şey aydın olacaq".

Qeyd edək ki, AŞPA-nın Müstəqil Araşdırma Qurumu təşkilat daxilində korrupsiya faktları ilə bağlı hesabat hazırlayıb. Hesabat Büroya təqdim olunub. Ötən gün Büro hesabatın mətnini açıqlayıb.

Hesabatda Azərbaycanla münasibətdə korrupsiya faktı ilə bağlı Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, həmməruzəçilər Stefan Şennak, Sezar Florin Preda, keçmiş AŞPA sədri və keçmiş Azərbaycan üzrə həmməruzəçi Pedro Aqramunt, parlamentar Yordi Çukla və digərlərinin adı çəkilir.

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

**Almaniyada mühacir həyatı yaşayan sabiq deputat və biznesmen, "Quska" ləqəbli Hüseyn Abdullayev Türkiyədə həbs edilərək Azərbaycana ekstradisiya olunub. H.Abdullayev İnterpol xətti ilə saxlanılaraq, Azərbaycanın daxili işlər orqanları əməkdaşlarına təhvil verilib.**




# Həbs olunan Hüseyn Abdullayevin vəkili danışdı - "O məsələlərə qarışmıram"

## Bu gün sabiq deputatın barəsində həbs-qətimkan tədbiri seçilə bilər; **Fəzail Ağamalı:** "Cinayət əməllərinə yol verən insanlar qanun qarşısında cavab verməlidirlər"; **Əliağa Hüseynov:** "İnsan gərək heç zaman yaxşılıqları itirməsin"

Məlumata görə, "Quska" Vergilər Nazirliyinin İstintaq İdarəsində saxlanılır və onun orada ifadəsi alınır. Sabiq deputatın Bakıya gətirilmə anını əks etdirən qısa videoçəkiliş və fotolar da yayılıb.

Aprelin 23-də H.Abdullayevin dindirmədən sonra müstəntiqin təqdimatı əsasında məhkəmə önünə çıxarılaraq, barəsində həbs-qətimkan tədbirinin seçiləcəyi gözlənilsə də, iş vaxtının bitməsinə qədər bu, baş vermədi. Biznesmenin bu gün məhkəmə önünə çıxarılacağı gözlənilir.

Aprelin 23-də günorta saatlarında H.Abdullayevin hüquqlarını müdafiə edən Ruhid Əkbərov onunla görüşüb. O deyib ki, Hüseyn Abdullayevin səhhəti normaldır, bununla bağlı heç bir problemi yoxdur. R.Əkbərov "Amerikanın Səsi"nə bildirib ki, hazırda vergi cinayəti ilə bağlı qaldırılmış cinayət işi üzrə istintaq davam etdirilir.

Vəkil H.Abdullayevin Türkiyədə hansı şəraitdə saxlanılması ilə bağlı suala belə cavab verib: "Çox təəssüf ki, onu mən özüm də bilmirəm. O faktiki olaraq bizim ölkədən kənarda baş verən bir hadisədir. Faktiki olaraq Hüseyn Abdullayev bu dəqiqə Azərbaycandadır".

"Hüseyn Abdullayev Almaniyadan siyasi sığınacaq almışdı. Onun saxlanılması ilə bağlı Almaniya səfirliyi məlumatlandırılıb?"- sualına cavabında vəkil deyib ki, bu barədə məlumatlı deyil: "Mən vəkiləm. Ancaq onun hüquqi məsələləri ilə məşğulam. Yəni bunun siyasi, özünün mövqeyi, statusu, yaxud da digər məsələlər mənim səlahiyyətlərimə aid deyil. Çox təəssüf. Yəni o barədə məlumatlı deyiləm".

Qeyd edək ki, H.Abdullayev əvvəllər Azərbaycan hakimiyyətinə ən yaxın olan biznesmenlərdən biri idi. Hətta onun mühafizə xidmətinin işçiləri 1990-cı illərin sonu, 2000-ci illərin əvvəlində dəfələrlə müxalifətin mitinqlərinin dağıdılmasında iştirak ediblər. 2007-ci ilin martında isə "Quska" üçün deputatlıq karyerasını bitirən hadisə yaşanıb. Belə ki, sabiq baş nazir Artur Rəsi-zadə parlamentdə hesabatla çıxış edərkən H.Abdullayev Nazirlər Kabinetini sərt şəkildə tənqid edib. Bu da onun həmkarı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalının sərt etirazına səbəb olub və deputatlar yumruq davasına çıxıblar. Bu hadisədən üç gün sonra H.Abdullayevin toxunulmazlığı alınıb və o, xuliqanlıq ittihamı ilə həbs edilib. 2007-ci ilin mayında məhkəmə onu 2 il şərti azadlıqdan məhrumetmə cəzasına məhkum edib. "Quska" azad edildikdən sonra "Oğuz eli" İctimai Birliyini təsis edib. 2012-ci ilin sonlarında sabiq deputat Almaniyaya gedib və bu günə qədər Azərbaycan hakimiyyəti əleyhinə xaricdə qara piar kampaniyası aparan qüvvələrin başında duran şəxslərdən biri olub. Müxtəlif zamanlarda onun ölkə müxalifəti ilə də yaxın təmasları olub, onlara bəzi vaxtlarda açıq dəstək də verib. 2013-cü ilin mayında o, Azərbaycan hökumətinə qarşı etirazlara çağırış ehtiva edən "Susma" adlı etiraz mahnısı yazıb. Həmin ilin iyulunda ona qarşı Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi-vergi ödəməmə, qanunsuz sahibkarlıq ittihamı ilə cinayət işi açılıb və barəsində axtarış elan edilib. Bundan sonra H.Abdullayev Almaniya hakimiyyətinə ona siyasi sığınacaq verilməsi xahişi ilə müraciət edib və sığınacaq alıb.

2018-ci ilin oktyabrında Azərbaycanda keçirilməli olan prezident seçkilərində namizəd olacağını bəyan edən "Quska" seçkilərin 6 ay ertələnməsindən sonra iddiasından geri çəkilərək, Azərbaycan hakimiyyətini sərt şəkildə tənqid edib.

Son aylarda isə onun haqqında müxtəlif şayiələr yayılıb. Bunlardan ən ciddisi "Quska"nın bu ilin əvvəllərindən daha da fəallaşan Avropadakı "söyüş müxalifəti"ni maliyyələşdirdiyi barədə idi. H.Abdullayevin Azərbaycan hökumətinə rəhbərlik edən şəxsləri, onların ailə üzvlərini ən iyrənc formada təhqir edən şəxslərə böyük məbləğdə pul vəsaitləri verdiyi iddia edilirdi. "Söyüş müxalifəti"nin əsas bazasının Almaniyada olmasının təsadüf olmadığı, "Quska"nın yaşadığı ölkədə belə şəxsləri tapıb üzə çıxardığı və müəyyən məbləğdə pul qarşılığında Azərbaycan hakimiyyətini söydürdüyü qeyd olunurdu. Məhz bu və ya digər səbəblərdən H.Abdullayevin Türkiyədən qandallanaraq Azərbaycana gətirildiyi bildirilir.

Onun həbsi ilə bağlı da müxtəlif versiyalar var. "Quska"nın Türkiyədə böyük biznesinin, hətta Bodrumda otelinin olduğu iddia edilir. Musavat.com-un məlumatına görə, Hüseyn Abdullayev Azərbaycanı tərk etdikdən sonra istirahət və biznes məqsədləri üçün tez-tez Türkiyədə olurdu. O, bu ölkədə Azərbaycandakı adamları, o cümlədən də ailə üzvləri ilə görüşür, yay tətillərini Ağ dəniz sahillərində keçirdirdi. Qardaş ölkəyə belə gəlişlərindən birinin bu günlərə təsadüf etdiyi və orada İnterpol xəttilə həbs edilərək ölkəmizə təhvil verildiyi qeyd olunur.



**F.Ağamalı** keçmiş həmkarının həbsi ilə bağlı modern.az-a açıqlama verib: "Ancaq mənim yanaşmam bundan ibarətdir ki, kimliyindən asılı olmayaraq Azərbaycan qanunlarını pozan, cinayət əməllərinə yol verən insanlar qanun qarşısında cavab verməlidirlər. Tutmuş olduqları əməllərinə görə onların fəaliyyətinə hüquqi qiymət verilməlidir. Burada qeyri-adi, xüsusi yanaşmanı görmürəm".

**Milli Məclisin deputatı, ehtiyatda olan general-leytenant Əliağa Hüseynov** da bu həbsə münasibət bildirib. O, ölkə.az-a açıqlamasında deyib ki, Hüseyn Abdullayev yol verdiyi səhvlərinə görə indi cavab verməlidir: "O, hansı səhvlərə yol veribsə, indi gəlib cavabını versin. İnsan gərək heç zaman yaxşılıqları itirməsin. Heç kəsin ixtiyarı yoxdur ki, prezidenti və vətəndaşı söysün. Əgər kimsə prezidenti təhqir edirsə, deməli, xalqı da təhqir edir. Çünki prezident öz-özünə seçilmir, onu xalq seçir. Ona görə də prezident haqqında nəsə deyən şəxs çalışmalıdır ki, etik normaları pozmasın".

Deputat qeyd edib ki, Hüseyn Abdullayevin Azərbaycana ekstradisiyası digər adamlara da dərs olmalıdır: "Yəqin ki, bu, digər adamlara da dərs olacaq. Mən bütün radikal müxalifətçilik edən insanlara müraciət edib deyirəm ki, danışığınıza və hərəkətlərinizə fikir verin, artıq hərəkətlərə yol verməyin, düz işlərdən danışın. Hesab edirəm ki, "demokratiya" adı altında bu cür qeyri-etik hərəkətlər etmək olmaz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

---

# Qiyamətə qalan barışıq



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu gün - 24 aprel ümum-erməni ağlaşma, hüzn günüdür. Bu gün dünyanın harasında erməni varsa, orada antitürk isterikası yenidən fontan vuracaq, "əzabkeş xalq" yenə də şəbih çıxaracaq.**

24 aprel ermənilər üçün çoxdan bir mentalitet məsələsi, özünütəsdiqin və identikliyin, erməniliyi qabardıb gözə soxmağın sınanmış formasıdır. Eyni zamanda bir kimlik vəsiqəsi, vizit kartıdır. Hətta qan yaddaşına, genə hopmuş milli adət-ənənədir. Pasxa kimi. Ermənilər bunsuz yaşaya, ildə bir dəfə ağlaşma qurub mərəkə qoparmaya bilmirlər.

Amma heç bir xalq mənfur qonşularımız kimi keçmişə bunca maniakal şəkildə ilişib qalmayıb. Onu özü üçün fetişləşdirməyib, ən başlıcası, keçmişi, üstəlik də yaxın keçmişi dünyanın düz vaxtında bunca həyasızcasına saxtalaşdırmayıb, siyasiləşdirməyib.

Şübhəsiz, keçmişi unutmaq olmaz. Fəqət, keçmişlə "ət-dırnaq" kimi yaşamaq da anormallıqdır. Keçmiş yalnız ibrət götürüb doğru yolu bulmaq üçündür. Ermənilər isə 103 il öncəki kədərli hadisələrdən yanlış nəticə çıxarıblar və 103 il öncəki qaldıqları yerdən fəlakətli yola davam edirlər.

Yenə yenə rusun, ingilisin, hətta farsın əlində maşa olub bölgəni qarışdırır, nə özlərinin, nə də qonşu xalqların rifaha qovuşmasına imkan verirlər. Özləri də fərq etmədən ən əvvəl Kremlin maraqlarına işləyirlər. Və ən çox da özləri altını çəkirlər. Erməni xalqının bugünkü rəzil, səfalətli durumu görkdür.

Halbuki istənilən xalqın nicatı öncə öz qonşuları ilə dinc-yanaşı, anlaşma içində yaşamaqdan keçir. Ermənistan isə Türkiyə və Azərbaycan kimi vazkeçilməz qonşuları, böyük iqtisadi-ticari və əlverişli bazarları qoyub heç bir sərhədi olmayan, tənəzzülə gedən Rusiya imperiyası ilə 100 ildən çoxdur eyni təhlükəli oyunu oynayır, ruslarla çaşka-lojkalıq edir...

Bu minvalla ermənilərlə barışıq çətin olacaq. Bəlkə də heç mümkün olmayacaq. Necə mümkün olsun ki, uydurma soyqırımın tanınması məsələsi Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılıb, millətin, lobbinin əsas hədəfi elan edilib, sanki erməniliyin 1 saylı varlıq şərti kimi təsbit olunub.

Bu məsələ konstitusiyada da əksini tapıb. Demək ki, Türkiyə ilə sərhədlər açılsa belə, iki xalqın böyük barışığı alınmayacaq. Əsl barışıq Qiyamətə qalacaq. Çünki Türkiyə, təbii ki, saxta məsələni tanımayacaq.

Elə erməni tərəfi də Türkiyənin istəyini qulaqardı edəcək: Ankaranın arxivləri birgə, tərəfsiz və müstəqil beynəlxalq komissiyanın tabın iştirakı ilə araşdırmaq kimi illərdir irəli sürdüyü ədalətli təklifə yaxın düşməyəcək. Zira, bu komissiyanın gələcəyi nəticəni yaxşı bilir. Türkiyəyə düşmən kəsilən isə Azərbaycanla barışa bilməz.

Təsadüfi deyil ki, indiyədək qondarma genosid iddiası, yarım-müsəlman Livan istisna olmaqla, yalnız bir qisim xristian dövləti tərəfindən tanınıb. Bu da məsələnin tarixi deyil, siyasi köklərə malik olduğunun, sırf xristian təəssübkeşliyindən qaynaqlandığını və Türkiyəyə qarşı təhdid aləti kimi istifadə elədiyinin bariz sübutudur.

Bunu da hamı bilir ki, qardaş ölkənin Avropa Birliyinə üzvlüyü yolunda süni əngəllərdən biri məhz "erməni kartı"dır.

Əfsus ki, bu gün ədalətdən, beynəlxalq hüquqdan danışan və bu əsasda işğalçı Rusiyaya qarşı sanksiyalar tətbiq edən xristian dünyasının önəmli hissəsi Qarabağ məsələsinə saxta genosid iddiası prizmasından baxır. Bizim işimizi qəlizləşdirən həm də budur - Ermənistanın Qərbə bizdən bir köynək yaxın sayılması.

Acı gerçək belədir ki, bu gün Ermənistan xristian dünyası üçün doğma işğalçıdır, yad deyil. Ona sanki türklərin daima incitdiyi yazıq, "əzabkeş" təcavüzkar qismində baxılır. Postsovet məkanın digər separatçı ünsürlərindən fərqli olaraq, Qarabağ separatçılarına Avropa və ABŞ-da, Fransada bunca qucaq açılmasının, onlara sevgi, hüzn-rəğbət bəsləməsinin sirri bu.

Bizim əsas işimiz Qərbin aparıcı kəsiminin düşüncəsindəki belə yanlış qənaəti dəyişmək, Ermənistanın gerçək işğalçı obrazını bərpa eləmək, onun geydiyi "əzabkeş" çuxasını yırtıb da dünyaya, Qərbə olduğu kimi göstərməkdir...

P.S. Budəfəki 24 aprel ağlaşması Ermənistanda inqilabi situasiya və daxili qarışıqlıqla üst-üstə düşüb. Ümid edək, nəticə yekun olaraq ermənilərin bir millət kimi, nəhayət, doğru yolu tapmasına yardımçı olacaq, nəinki əksinə, Türkiyə və Azərbaycana patoloji nifrəti artıracaq...

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

# Hökumətdə təsdiqlənməyən nazirlər...

## Onların arasında "qocamanlar" da var, yeni təyin edilən də

**Xəbər verildiyi kimi, prezident İlham Əliyevin aprelin 21-də təsdiqlədiyi yeni hökumətdə bir neçə nazir və komitə rəhbəri təsdiq olunmayıb. Vəzifələrini, hələ ki, müvəqqəti icra edən bu şəxslərin postlarında qalıb-qalmayacaqları suallar doğurur. Onlardan hər birinin nə zamandan bu vəzifələri tutduqları ictimaiyyət üçün də maraqlıdır.**

Bu marağı və mövzunun aktuallığını nəzərə alaraq, "ofsayt" vəziyyətində qalan məmurların neçə ildir bu postlara rəhbərlik etdikləri barədə məlumat veririk:

Ekologiya və təbii sərvətlər naziri postunu 17 ildir Hüseyn Bağırov tuturdu. O, 1955-ci ildə anadan olub və hökumətin nisbətən gənc kadrlarından sayılırdı. Artıq H.Bağırovun bu vəzifədə qalmayacağı dəqiqləşib. O, aprelin 23-də nazirlikdə kollektivlə vidalaşıb. H.Bağırovun səhhəti ilə əlaqədar postundan öz istəyi ilə getdiyi bildirilir.

"Sual altında" olan nazirlərdən biri də gənclər və idman naziri Azad Rəhimovdur. O, 2006-cı ildən etibarən nazir postunu tutur.

Mədəniyyət naziri Əbülfəs Qarayev 1956-cı ildə anadan olub və hökumətin vəzifə tutmaq baxımından ən "uzunömürlü" üzvlərindən biridir. O, 1994-cü ildə gənclər və idman naziri təyin olunub. 2001-ci ilə qədər bu vəzifədə çalışıb. Həmin il nazirlikdə struktur dəyişiklikləri aparılıb, turizm sahəsi də bu nazirliyə həvalə edilib və Əbülfəs Qarayev gənclər, idman və turizm naziri statusunda yenidən təyinat alıb. 2006-cı ilə qədər bu statusda çalışıb, həmin il yenidən struktur dəyişikliyi aparılıb və nazirlik bölünüb, idman sahəsi ayrılıb. Nəticədə Əbülfəs Qarayev bu dəfə mədəniyyət və turizm naziri portfelini götürüb, yenə də nazir postunda qalıb.


Hüseyn Bağırov


Əbülfəs Qarayev


Yavər Camalov

Vəzifəsinə hələlik təsdiqlənməyənlərdən biri də müdafiə sənayesi naziri Yavər Camalovdur. O, 1949-cu ildə anadan olub, 2006-cı ildən, yəni Müdafiə Sənayesi Nazirliyi yaradılan gündən bəri bu nazirliyə rəhbərlik edir.

Səhiyyə naziri Oqtay Şirəliyev 1950-ci ildə anadan olub, 2005-ci ildən səhiyyə naziridir.

Vəzifəsinə təsdiq olunmayan komitə sədrlərindən Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 1955-ci ildə anadan olub. 2006-cı ilin fevralından, yəni 12 ildir ki, həmin komitənin sədri vəzifəsini tutur.

Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri Nazim İbrahimov 1963-cü ildə anadan olub, 2002-ci ildən həmin komitəyə rəhbərlik edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə cəmi 4 ildir bu vəzifəni tutur, 2014-cü ildə komitəyə rəhbər təyin edilib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük general-polkovniki Aydın Əliyev 1957-ci ildə anadan olub, Gömrük Komitəsinə 12 ildir rəhbərlik edir.

Dövlət Statistika Komitəsinin sədri, 1965-ci ildə anadan olan Tahir Budaqov isə bu vəzifədə "uzunömürlü" hesab edilə bilməz. O, 2015-ci ildə həmin vəzifəyə təyin edilmişdi.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri, 1969-cu ildə anadan olan Kərəm Həsənov da vəzifəsinə hələlik təsdiq edilməyənlər sırasındadır. Həsənov 2005-ci ildən bu vəzifəni tutur.

Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev də vəzifəsinə hələ təsdiq edilməyib. 1960-cı ildə anadan olmuş Nəbiyev Dövlət Miqrasiya Xidmətinə 2012-ci ildən bəri rəhbərlik edir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Arzu Rəhimovun da vəzifəyə təsdiqlənib-təsdiqlənməyəcəyi məlum deyil. 1964-cü ildə anadan olmuş Rəhimov 2012-ci ildən bu xidmətə rəhbərlik edir.

Bu yaxınlarda yaradılan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qorxmaz Təhməzli də hələlik səlahiyyətlərini müvəqqəti icra edəcək. Habelə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Əqli Mülkiyyət Agentliyinin, Milli Arxiv İdarəsinin də rəhbərliyinə hələlik təyinat olmayıb.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Seçkidən sonra müxalifət "yoxa çıxıb"

**11 aprel prezident seçkilərindən iki həftə keçir. Seçkilərdə iştirak eləməyən müxalifət partiyalarının bir neçəsinin seçkidən sonra aprelin 14-də "Məhsul" stadionunda təşkil etdiyi mitinq nəzərə alınmasa, müxalifət düşərgəsinin, demək olar ki, heç bir fəaliyyəti, toplantısı, durumu dəyərləndirməsi olmayıb. Keçmiş illərdəki təcrübəni xatırlasaq belə görünür ki, 11 aprel prezident seçkilərindən sonrakı dövrdə müxalifətin hərəkətliliyi olmayıb. Bir sıra siyasi təhlilçilər qeyd edirlər ki, sanki bu seçkilərdən sonra Azərbaycanda ənənəvi müxalifət tamamilə "yox olub".**

Bu mövzuda danışdığımız **Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** bildirdi ki, seçkidən sonra yaranmış durum və atılacaq addımlarla bağlı bir toplantının keçirilməsi razılığı olduğu barədə onda da məlumat yoxdur. Amma indiki siyasi situasiyanın dəyərləndirilməsi və yaxın dövr üçün, o cümlədən içində yaşadığımız müddət üçün bir sıra məsələlərin müzakirə edilib müəyyən qərarlar nail olunması məqsədilə təşəbbüslər var: "Bunun üçün mənə də müraciətlər var. Bu istiqamətdə istisna deyil ki, tam çərçivədə olmasa da, müəyyən toplantılar keçirilsin. Əsas məsələ odur ki, müxalifət daxilindəki alternativlər, hazırda öndə olan müxalifət qüvvələrinə qarşı bir alternativ kimi yox, ümumi müxalifətin həm imkanlarını, həm gücünü irəliyə aparan bir təşəbbüs olsun. Bu cür olması istənilir və bir araya gəlmək bu baxımdan ləngiyir. Yoxsa, sözün doğrusu, ehtiyac var ki, bir dəyərləndirmə aparılsın və müəyyən qərarlar qəbul edilsin".

P.Hüseynin sözlərinə görə, müəyyən müzakirələr gedir, nəticəsinin necə olacağı bəlli olacaq.

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

# İki sabiq nazirin getməsini şərtləndirən amillər

## Heydər Əsədov və Səlim Müslümov vəzifədən müsbət imiclə ayrılmadılar

**Azərbaycan hökumətinin yeni tərkibində yer almayan məmurlar arasında iki nazir diqqəti cəlb edir. Bunlar sabiq kənd təsərrüfatı naziri Heydər Əsədov və əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovdur. Hər iki şəxs nazir postuna təyin olunarkən rəhbərlik etdikləri sahələrdən böyük gözləntilər vardı. Hər iki istiqamət dövlətin prioritetləri sırasındaydı. Hər iki sahədə ciddi islahatların aparılması, dəyişikliklərin edilməsinə ehtiyac böyük idi.**


Heydər Əsədov


Səlim Müslümov

H.Əsədov Kənd Təsərrüfatı Nazirliyinin rəhbəri olduqdan sonra ilk işi ətrafına özü kimi maliyyəçiləri toplamaq oldu. On illərlə kənd təsərrüfatı sahəsində çalışmış mütəxəssislər işdən uzaqlaşdırıldı, əvəzində işdən məlumatsız maliyyəçilər götürüldü.

Aqrar sektor dövlət rəhbərliyinin birbaşa diqqətində olan sahələrdən bəlkə də birincisidir. Son illərdə xüsusilə bu sektorun inkişaf etdirilməsi qarşıya bir nömrəli məqsəd kimi qoyulub. Ölkə rəhbərliyi aqrar sektorun dirçəlməsi üçün lazım olan bütün maliyyə və resurs dəstəyini verməkdədir. Bu şəraitdə kənd təsərrüfatına rəhbərlik edən şəxsin çevik işləyən, sahəni doğru-düzgün bilən, nəhayət, ölkə qarşısındakı yeni çağırışlara cavab verəcək biri olmalıdır. H. Əsədov bu tələblərin heç birinə cavab vermirdi desək, yanılmarıq.

H.Əsədovun nazir təyinatından az sonra KTN daxilində, xüsusilə də əsas korrupsiya mənbəyinə çevrilmiş "Aqrolizinq" ASC sistemində müəyyən dəyişikliklər oldu, bir sıra rayonlarda yerli şöbə rəhbərləri işdən çıxarıldı. Bununla da gözlənilirdi ki, kənd təsərrüfatı istehsalçılarına dövlət subsidiyalarını, texniki yardımı paylayan bu qurumda vəziyyət düzələcək, yerlərdə müşahidə olunan neqativ hallara son qoyulacaq. Lakin az müddətdən - "Aqrolizinq"ə H.Əsədovun adamları yerləşdirildən sonra yenidən hər şey köhnə məcrasına qayıtdı. Yenə də dövlət xətti ilə alınıb gətirilən kənd təsərrüfatı texnikalarının fermerlərə güzəştli satışında ayrı-seçkilik, korrupsiya bərpa olundu. Eyni zamanda güzəştli qiymətlərlə gübrə satışında özbaşınalıqlar davam etdi. Bir neçə həftə əvvəl bununla bağlı Tərtər və Ağcabədi rayonlarından redaksiyamıza müraciət edən fermerlər taxıl üçün zəruri olan gübrənin onlara verilmədiyi, "Aqrolizinq" tərəfindən əlaltından satıldığı bildirilirdi.

Kənd təsərrüfatı texnikasının, damazlıq mal-qaranın, gübrələrin alınması üçün keçirilən tenderlərdə qapalılıq hökm sürür, heç kimin tanımadığı, hətta qeydiyyatdan keçdiyi ölkələrin reyestrində belə barəsində hər hansı məlumat olmayan şirkətlər qalib elan olunurdu. Bu şübhəli tenderlərlə bağlı mətbuatda gedən materiallar nazirlik tərəfindən qulaqardına vurulurdu.

Bütün bunlar göstərir ki, kənd təsərrüfatına diqqətin artdığı, qeyri-neft sektorunun əsas prioritetlərindən birinə çevrildiyi bir zamanda bu sahəyə fəaliyyətində səmərəlilik və təmizlik prinsiplərinə əməl edən birinin rəhbərlik etməsi getdikcə daha böyük zərurətə çevrilirdi. Ölkə rəhbərliyinin məhz bu zərurətdən irəli gələrək H.Əsədovu İnam Kərimovla əvəz etməsi ictimaiyyət tərəfindən razılıqla qarşılanıb.

Fəaliyyəti geniş əhali qruplarının diqqətində olan ikinci nazir S.Müslümov idi. S.Müslümov Dövlət Sosial Müdafiə Fonduna rəhbərlik etdiyi dövrdə pensiya sistemində mühüm dəyişikliklər baş vermişdi - daha çox pensiyaçıların zərərinə. Belə ki, ölkənin pensiya sistemində islahatların ilk mərhələsi olaraq əhalinin 2006-cı ilədək mövcud olmuş pensiya staşı cüzi məbləğlə ifadə olundu. Nəticədə uzun illər Sovet müəssisələrində, daha sonra müstəqillik dövründə ölkədə işləyərək dövlətə sosial ödəniş həyata keçirən şəxslərin pensiyası qəpik-quruşla ölçüləcək həddə salındı.

Düzdür, S.Müslümov əmək və əhalinin sosial müdafiəsi naziri təyin olunduqdan sonra əlilliyin təyinatı və sair sahələrdə müəyyən dəyişikliklər həyata keçirildi. Lakin bunlar rüşvətxorluğun, qeyri-qanuni ödənişlərin qarşısını ala bilmədi. Əvəzində isə həqiqətən əlil olan şəxslərin əlilliyinin təsdiqi prosesi çətinləşdi. Eyni zamanda Qarabağ müharibəsində əlil olan şəxslərin avtomobil, mənzil növbəsinə götürülməsi prosesi, demək olar ki, tamamən dayandırıldı.

DSMF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibinə verilməsindən sonra S.Müslümovun rəhbərliyi ilə pensiya islahatlarının yeni mərhələsi başladıldı. Bu dəfə tətbiq edilən yeniliklər sayəsində isə həm pensiya yaşı artırıldı, həm də elə qaydalar müəyyən olundu ki, mütəxəssislərin fikrincə, indiki şərtlər daxilində, işləyən hər 100 nəfərdən 35-40 nəfəri ancaq o qaydalar əsasında pensiya ala biləcək.

Göründüyü kimi, hər iki sabiq məmur vəzifədə olarkən heç də müsbət imicə malik olmayıblar. Bu baxımdan hesab edirik ki, onların vəzifədən uzaqlaşdırılması hökumətin tərkibində qeydə alınan ən müsbət dəyişikliklərdən biri hesab olunmalıdır.

❑ **TURQUT, "Yeni Müsavat"**

**Azərbaycanda və Ermənistanda eyni ayda seçkinin keçirilməsi, eləcədə iki ölkədə seçkisonrası yaranmış bir-birindən ciddi fərqli situasiyanı təhlil etmək üçün tarixi fürsət yaranıb. Adətən Azərbaycanın peşəkar mediası heç bir halda ölkəmizi Ermənistanla müqayisə etməməyə çalışır ki, bu ənənə illərdir bu cür davam edir. Amma indi sanki bir tarixi fürsət ələ düşüb ki, bunu həm iqtidar telekanalları, həm mediası, həm də politoloqlar lazımınca dəyərləndirir. Məsələn, "Azərbaycan" qəzeti bu günlərdə səhifələrində bir tərəfdə siyasi sabitliyin hökm sürdüyü Azərbaycandan, digər tərəfdə isə xaosa sürüklənən Ermənistandan iki-üç effektli şəkil dərc etmişdi. Buna şərh yazmamaq da olardı, şəkli, dilindən və irqindən asılı olmayaraq, hamı müqayisə edə bilər...**




# İlham Əliyev Azərbaycanı necə xilas etdi - nümunə

## 2005-ci ildə Azərbaycanda hər hansı "rəngli" və ya "rəngsiz inqilablar" dövrü başa çatdı və ölkə siyasi sabitlik yoluna kurs götürdü; prezident Azərbaycanı Avropa Birliyi və Qərbdə "Putinin SSRİ"si adlandırılan Avrasiya İttifaqına ona görə üzv etmədi ki...

Bakı və İrəvan küçələrində seçkisonrası yaranmış situasiyada, əlbəttə ki, fərqli cəhətlər var. Əvvələ, Ermənistanda xalq nə yeni prezident Armen Sərkisyanı, nə də köhnə prezident Serj Sərkisyanı seçki məntəqəsinə gedərək ölkə rəhbərliyinə seçməyib. Etirazçı kütlə parlamentdən görəv almış Sərkisyanları qəbul etmir və Ermənistanda siyasi hakimiyyət böhranı yaranıb. Böhran artıq o dərəcədə inkişaf etdi ki, özünün pik həddinə çatdı və Sərkisyan istefa verməyə məcbur qaldı. Lakin bu cür yekun da Ermənistandakı qarşıdurma və gərginliyi azaltmayacaq.

Azərbaycanda isə seçkinin nəticələri elan olunduqdan sonra narazılıq yaranmayıb, prezident İlham Əliyev böyük səs üstünlüyü ilə daha 7 il hakimiyyətdə qalmaq şansı əldə edib, yeni hökuməti də əsas etibarilə formalaşdırıb. Sərkisyanın istefasından sonra Ermənistanda siyasi böhranın hələ nə qədər davam edəcəyini söyləmək çətindir. Çünki iqtidardan yalnız bir adam getməyib - "Qarabağ klanı" ciddi zərbə alıb və hakimiyyətdən çəkilməyə məcbur olub. Bu da o deməkdir ki, Ermənistanda klanlararası qarşıdurma daha da gərginləşəcək və nəticə etibarilə qondarma "DQR" ilə rəsmi İrəvanın münasibətlərinin mahiyyəti dəyişəcək. ..

Azərbaycanda seçkinin vaxtının önə çəkilməsinə verilən siyasi şərhlərin, o cümlədən də rəsmilərin açıqlamalarının ana xəttini "xarici qüvvələrin məkrli planlarını önləmək" təşkil edirdi. Seçkinin oktyabrda olacağı təqdirdə Azərbaycanda da indi İrəvan küçələrini xatırladan mənzərə yaranacağını demək olmazdı. Çünki İlham Əliyev hakimiyyəti 2003-cü ildən bəri ölkənin siyasi sabitliyinə qarant kimi çıxış edir və 2005-ci il parlament seçkiləri ərəfəsi planlaşdırılan "narıncı inqilab" iki nazirin və daha bir neçə məmurun həbsi ilə nöqtələnmişdi.

İlham Əliyev hakimiyyət üzərində eksperimentləri heç vaxt yaxına buraxmayıb, baxmayaraq ki, xüsusilə 2005-ci il parlament seçkilərində Qərb müxalifətə 25 deputat "yeri almaq" üçün ciddi təzyiqlərə başlamışdı. Amma nəticə etibarilə 2005-ci ildə Azərbaycanda hər hansı "rəngli" və ya "rəngsiz inqilablar" dövrü başa çatdı və ölkə siyasi sabitlik yoluna kurs götürdü.

Bundan sonrakı illərdə də Azərbaycanda siyasi proseslərə kənardan müdaxilə cəhdləri oldu. Xüsusilə bəzi hallarda siyasi məhbus və demokratiya adı altında pərdələnmiş beynəlxalq institutlar ölkəyə kənardan "demokratiya ixracı"na həvəsləndilər. Amma bu dəfə də İlham Əliyev Azərbaycanın daxili işlərinə kənardan müdaxilələrə sərt cavab verdi, 2009-cu ildən başlayaraq ABŞ-ın Milli Demokratiya İnstitutu və Beynəlxalq Respublikaçılar İnstitutu kimi təşkilatların Azərbaycanda fəaliyyətləri dayandırıldı.

Avropa Birliyinin (AB) keçmiş sovet respublikaları üçün hazırladığı "Şərq Tərəfdaşlığı" proqramı da Rusiyanın qonşularına cəlbedici plan kimi düşünülmüşdü. Ukrayna bu saziş səbəbindən cəhənnəmə döndü və hələ də Avromeydanın ağrılarını sarıyır. Moldovada da assosiativ saziş imzalandıqdan sonra ciddi parlament-prezident böhranı yaşanmaqdadır. Bu günlərdə Ermənistan parlamentində ratifikasiya olunan assosiativ saziş də erməni hakimiyyəti üçün düşərli olmadı.

İlham Əliyev isə AB ilə münasibətlərdə həm ölkədaxili müxalifətin, həm Avropa Parlamentinin iradlarına baxmayaraq, fərqli siyasətə üstünlük verdi. Azərbaycan assosiativ saziş deyil, AB ilə ikitərəfli ələqələri ehtiva edən sənədlə bağlı danışıqlara başladı. Bu danışıqlar hələ də davam edir və həm rəsmi Bakı, həm Brüssel bu məmnuniyyətlə formatından məmnundur.

İlham Əliyev bəzi hallarda Avropa paytaxtlarında hətta "antidemokratik idarəçilik" ittihamları ilə qarşılaşsa da, Azərbaycanı dünyada baş verən həm iqtisadi böhrandan, həm "ixrac olunan demokratiya" bəlasından böyük siyasi bacarıqla keçirə bildi, ölkənin siyasi-iqtisadi sahədən müstəqil qərarlar verməkhüququnu kimsəyə güzəştə getmədi.

Prezidentin, Rusiya ilə strateji müttəfiqlik siyasətinə baxmayaraq, Azərbaycanı Qərbdə "Putinin SSRİ" si adlandırılan Avrasiya İttifaqına da üzv olmadığına isti baxmadığını xüsusi qeyd etmək lazım gəlir. Rusiya Avropadan fərqli olaraq bu cür məsələlərdə "pəncə" göstərməyi sevir, bəzi hallarda buna həm açıq, həm diplomatik cəbhələrdən cəhdlər olur. İlham Əliyev isə Azərbaycanı kimsəyə "yedirtmədi", siyasi sabitliyin təminatı üçün iqtisadi bazalar yaratdı və bunu həyata keçirdi. İndi Ermənistan demokratları təkcə demokratiya istəmirlər, həm də çörək davası edirlər. Hər iki Sərkisyan getsə belə, ölkəni düzəltmək çox çətin olacaq...

Prezident İlham Əliyevin həm seçki dövründə, həm də ondan sonrakı açıqlamalarına diqqət etsək, yaxın 7 ildə də siyasi və iqtisadi müstəqilliyin qırmızı xətlə keçdiyini görmək olar. Həm Ukraynada bitib-tükənməyən siyasi qarmaqarışıqlıq, həm Ermənistan olayları İlham Əliyevin ölkədə də bəzi kiçik qruplar tərəfindən qəbul edilməyən siyasi kursunun doğru istiqamətdə irəlilədiyini göstərir.

Son seçkidə Azərbaycan siyasi sabitlik kursuna səs verdi və xalq bunu qiymətləndirir. Azərbaycan hakimiyyətindən hamı razı deyil, problemlər var və olacaq. Amma xalq siyasi sabitliyi sosial problemlərdən daha üstün görür və bu siyasəti dəstəkləyir. İlham Əliyevun uğur formulunun qısa izahı budur...

❑ **"Yeni Müsavat"**

# Hərbi xunta daha çox erməni xalqına zülm etdi

## Azərbaycan dövləti Ermənistana rəsmi müraciət edib, cinayətkar Serj Sərkisyanın Xocalı soyqırımına görə cəzalandırılmasını tələb etməlidir

**Ermənistanda baş qaldıran xalq etirazları qısa zamanda öz nəticəsini verdi. Azərbaycan və insanlıq düşməni Serj Sərkisyan məxməri bir inqilabla devrildi və istefaya məcbur edildi. Bu, Azərbaycan və region üçün olduqca mühüm, tarixi hadisədir.**



Baş verən hadisənin qısa özəti belədir: erməni xalqı 20 ildən artıq müddətdə Dağlıq Qarabağ kartı ilə onu girov saxlayan, bütün regional və beynəlxalq layihələrdə iştirakdan məhrum edən, Ermənistanı işğalçı dövlət kimi dünyaya tanıtdıran "Qarabağ klanı"ndan canını qurtardı. Öz ölkəsini hərbi xunta kimi idarə edən Sərkisyanın iqtidardan gedişi ilə bərabər, erməni xalqı öz hakimiyyətini yenidən formalaşdırmaq imkanı qazandı.

Azərbaycan üçün Serj Sərkisyan əsas düşmən statusunda idi və indi də elə qalır. O, 1992-ci ilin 26 fevralında baş verən Xocalı soyqırımının əsas səbəbkarı və aktiv iştirakçısıdır. Onun rəhbərlik etdiyi həbi xunta Ermənistanı və erməni xalqını çox ciddi problemlərə itələdi. Sərkisyan rejimi Azərbaycan və Türkiyə düşmənçiliyi siyasəti aparmaqla yanaşı, iqtidarda olduğu müddətdə daha çox öz xalqına zülm etdi. Ölkəsini özünün biznes məkanına çevirən mafioz bir klan və onun başçısı erməni xalqını bütün böyük layihələrdən kənarda buraxdı, nəticədə xalqı ac və səfil bir kütləyə çevirdi.

Əslində Sərkisyan istefa ilə canını qurtara bilməyəcək və bilməməlidir. Azərbaycan xalqına qarşı böyük cinayətlər törətmiş bu qatil həm də öz xalqına qarşı da ciddi cinayət əməlləri törədib. Arzu olunur ki, Sərkisyan bu əməllərinə görə öz cəzasını alsın. Əgər Ermənistan daxilində hər hansı bir cəza almazsa belə, artıq onun bir prezident, ya da baş nazir kimi heç bir immuniteti qalmayıb. Bu səbəbdən də Azərbaycan onu etdiyi və sübuta yetirilmiş cinayətlərinə görə beynəlxalq tribunallara verə, barəsində beynəlxalq axtarış qərarı çıxartdıra bilər. İstənilən halda bu cani əcəli ilə ölmədən Azərbaycan xalqı və dövləti tərəfindən cəzasını almalıdır.

O və digər Xocalı qatilləri məsuliyyətə cəlb olunmalıdır. Fikrimizcə, elə bu cür tələblə Azərbaycan dövləti Ermənistana rəsmi müraciət etməlidir. Doğrudur, yeni formalaşacaq Ermənistan hökuməti də dərhal "Qarabağı qaytarırıq" deməyəcək. Ola bilsin, Paşinyan kimi daha radikal "qırğı"ların timsalında savaş ritorikası bir müddət daha da güclənsin. Lakin artıq faydası yoxdur. "Monolit Ermənistan" mifi puç olub. İqtidardan düşürülən "Qarabağ klanı"Ermənistanın yeni iqtidarına qarşı, hətta ola bilsin, Ermənistan dövlətinə qarşı ciddi müxalifət faktoruna çevriləcək. Azərbaycanın işğal olunmuş torpaqlarında qurulan qondarma bir rejimin təmsilçiləri özlərini də, Ermənistanı da kifayət qədər zəifləmiş, bir növ çıxılmaz duruma gətirmişdir. Buna və Azərbaycan dövlətinin apardığı ağıllı, ardıcıl siyasətə görə tamamilə gücsüz, demoralizə vəziyyətə düşmüş erməni cəmiyyətinin, onun təsisatlarının, xüsusilə silahlı dəstələrinin bundan sonra hər hansı ciddi müqavimət, böyük qarşıdurma sərgiləyə biləcəyi inandırıcı görünmür.

Azərbaycanı və Türkiyəni özünə düşmən bilən Ermənistan və onun artıq keçmiş rəhbərliyi bu cür aqressiv siyasətin nəticəsini yaşamaqdadırlar. Bu mənada hazırda Ermənistanda baş verən olaylar həm də Azərbaycan dövlətinin, onun prezidenti İlham Əliyevin bu epizod üzrə qələbəsi sayıla bilər.

Ermənistanın yeni qurulacaq hökuməti eyni aqibəti yaşamaq istəmirsə, Azərbaycanın və beynəlxalq qurumların illərdir davam edən haqlı tələblərini nəzərə almağa məhkumdur. Artıq "müharibə partiyası"nın rəhbəri də devrildi; qorxmağa və xuntanın şantajlarından çəkinməyə gərək yoxdur.

Ermənistanda kim real hakimiyyətə - baş nazirliyə gəlsə, Qarabağ danışıqlarının önünü açmalı, Azərbaycanın daha radikal addımlar atmasına imkan verməməlidir. Seçimi erməni xalqı və dövləti edəcək: bizim torpaqları sülh yolu iləmi, yoxsa savaşda məğlub olaraq, böyük itkilər verərəkmi qaytaracaqlar. Yəni bu mövzuda Azərbaycanın seçim imkanı yoxdu - ölkəmiz işğaldakı torpaqlardan və özünün halal ərazilərindən heç bir vəchlə güzəştə getməyəcək, bu, mümkün deyil!

Əgər Serj Sərkisyanın siyasəti və savaş ritorikası, o cümlədən və xüsusən də anti-türk pafosu davam etsə, Ermənistanın bir dövlət kimi mövcudluğu sual altına düşəcək.

❑ **Rauf ARİFOĞLU, Musavat.com**

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018



# Öz qazdığı quyuya düşən

Xalid KAZIMLI

**Keçmiş deputat, "Quska" ləqəbli Hüseyn Abdullayevin Türkiyədə həbs edilərək Azərbaycana gətirilməsi anındaca "sensasion xəbər" qrafasına girdi və ölkədə əsas müzakirə predmetinə çevrildi.**

Adamı çoxdan hərləyirdilər, amma Almaniyadan sığınacaq almış olması onu qoruyurdu. O, beynəlxalq axtarışda olsa da, Almaniya dövləti Azərbaycan hakimiyyətinin tələb etdiyi bu şəxsi həbs edib vermirdi və verməyəcəkdi.

Hüseyn Abdullayevin məsələsini həll edən başlıca amil onun özünü təhlükəsizlikdə hiss etməsi, Avropa dövlətinin, ümumilikdə Avropanın hüdudlarını aşaraq Şərqə, Türkiyəyə gəlməsi olub.

O, bilməliydi ki, Türkiyədə təhlükəsizlikdə olmayacaq və onu həbs edib Azərbaycana verə bilərlər.

Fəqət belə anlaşılır ki, Hüseyn Abdullayev bu fikri özünə yaxın qoymayıb, məsələyə "nə etmişəm axı" prizmasından yanaşıb.

11 il öncə o, parlamentdə hökumətə qarşı üsyan püskürəndə və bunun nəticəsi olaraq əlbəyaxa davaya girişib həbs olunanda da hesab edirdi ki, heç nə etməyib.

İndi də ona qarşı irəli sürülən vergidənyayınma ittihamlarını çox da ciddiyə alan yoxdur, hamı bilir ki, Hüseyn Abdullayevin təqib olunmasının və həbsinin səbəbi başqadır.

O, bir vaxtlar müdafiə etdiyi hakimiyyətə qarşı asi düşmüşdü.

Hüseyn Abdullayevin asiliyi, üsyanı heç də ümumxalq maraqlarına görə deyildi, o, öz şəxsi ambisiyasının əsiri idi, yüksək dövlət vəzifəsi tutmaq istəyirdi, ancaq onu ona çox görürdülər.

Abdullayev isə özünü hakim komandanın dayaqlarından biri hesab edirdi, orda-burda mövcud iqtidar komandasının hakimiyyətini qorumaq üçün nələr etdiyindən, müxalifətə qarşı amansız mübarizəsindən danışır, hamını özünü borclu sayırdı.

O, ilk dəfə həbsə düşdükdən sonra baş verənlər göstərdi ki, adam bura qədər hansısa asi qrup daxilində imişsə, artıq təklənib və onu güdaza veriblər. Ancaq onun öz şəxsi davranışları (həm də sonradan dissidentə yaraşmayacaq yalvarışları) tezliklə onun qapısını açdı.

Həm də incəsənət adamı olan, yaxşı mahnıların müəllifi kimi ad çıxaran, eyni zamanda iş dünyasında xeyli irəliləmiş Hüseyn Abdullayev həbsdən çıxandan sonra ölkədə barına bilməyəcəyini anlayaraq Almaniyaya pənah aparmışdı.

Sonradan onun şəxsi mülklərinin əlindən alınması, sökülməsi prosesi start götürəndə, o, yenidən fəallaşdı və hakimiyyətə qarşı sərt fikirlər söyləməyə, açıq mübarizəyə atılmağa qərar verdi.

Ötən ilin payızında isə, rəsmi olaraq prezident seçkisinə bir il qalanda (bir çoxları kampaniyaya məhz seçkiyə bir il qalanda başlayır, geri sayım moduna girirlər), Hüseyn Abdullayev iddiasını ortaya qoydu. O, ölkəyə qayıtmaq və prezident olmaq istəyirdi.

Nədənsə ona elə gəlirdi ki, xalq arasında böyük nüfuzu var və seçkiyə qatılarsa, bütün rəqiblərinə asanlıqla qalib gələ bilər.

Bu inam və qənaət onda haradan idi, hələ də bəlli deyil. Fəqət, ortada olan odur ki, Abdullayevin bu iddiası xalq tərəfindən olmasa da, iqtidar düşərgəsində əməlli-başlı ciddiyə alınıb.

Ancaq hələ iddia irəli sürmək də həbsə alınmağın başlıca səbəbi deyil. Ona qalsa, ölkənin özündə bu iddiada olan və həbs olunmayan şəxslər çoxdur.

Hüseyn Abdullayevin həbsinin əsas səbəbi xarici ölkələrdə fəaliyyət göstərərək, Azərbaycan hakimiyyəti ilə sərt media savaşı aparanların sırasında, bəzi iddialara görə isə, arxasında olmasıdır.

Bu iddia mediada da səslənib. Güman olunur ki, məhz Abdullayevin sifarişi ilə bəzi şəxslər Azərbaycan hakimiyyətinin rəhbərlərinə qarşı sərt fikirlər səsləndirirlər.

Təbii ki, ona qarşı siyasi motivli ittihamlar irəli sürməyəcəklər.

Ancaq bu ölkədə çox adam istərdi ki, Hüseyn Abdullayev məhz 1998-ci, 2000-ci, 2003-cü, 2005-ci illərdə qol qoyduğu əməllərə görə cinayət məsuliyyətinə cəlb edilsin.

Burada qanunsuz yarımhərbi birləşmələr yaradıb idarə etməkdən, konstitusion haqqından yararlanaraq, mitinqdə iştirak edən lider və funksionerləri döydürməkdən tutmuş rəqib hesab etdiyi iş adamlarına silahlı təzyiq göstərməyə qədər çox əməl var.

Təəssüf ki, o, bunlara görə mühakimə edilməyəcək.

Bir vaxtlar Surət Hüseynov da beləcə xarici ölkədən tutulub gətirildi, mühakimə olundu, uzunmüddətli həbs cəzası aldı, ancaq ona qarşı irəli sürülən ittihamlar arasında 1993-cü ilin iyununda törətdiyi qiyama və Prezident Qvardiyasının döyüşçülərinin namərdcəsinə güllələnməsinə dair ittihamlar olmadı.

Belə də olur: adamı bir səbəbdən həbsə alır, əsas təqsirini kənara qoyur, başqa bir suça görə mühakimə edirlər.

# İki iraqlı Hüseynbala Mirələmovun 396 min manatlıq "1001 gecə" "oyunu"na düşüb

## Əcnəbi biznesmenlər deputatdan ölkə rəhbərliyinə şikayət etdilər

**YAP Xətai rayon təşkilatının sədri, deputat Hüseynbala Mirələmovun adı yenə də gündəmdədir. Həmişə olduğu kimi, Hüseynbala Mirələmovun adı bu dəfə də neqativ planda çəkilir.**



Deputat özünə məxsus, oğlunun adına rəsmiləşdirilən "Min bir gecə" İstirahət Mərkəzini ötən il icarəyə verib. 2 illik icarə haqqını alıb cibinə qoyub və müqavilənin varlığını unudub. İndi də İraq vətəndaşları olan icarədarları "Min bir gecə" İstirahət Mərkəzinə yaxın buraxmır. Fadhil Nairooz Abed və Amjed Mohammed Abed Msaaara baş verənlər barəsində ölkə rəhbərliyinə açıq məktub yazmaqla kömək istəyiblər.

**Deputat oğlunun adından müqaviləyə qol çəkdi**

Məktubdan belə aydın olur ki, 2017-ci ilin iyununda Bakı şəhəri 6 saylı notariat kontorunda Hüseynbala Mirələmov İraq vətəndaşlarına "Min bir gecə" İstirahət Mərkəzini icarəyə verib. Mərkəz rəsmi sənədlərlə deputatın oğlu Rauf Mirələmova məxsusdur. Buna görə də notariat kontorunda Hüseynbala Mirələmov oğlunun nümayəndəsi kimi iştirak edib. Bağlanan nüqaviləyə görə, Rauf Hüseynbala oğlu Mirələmova aid olan "Min bir gecə" İstirahət Mərkəzi hər biri 333 kvadratmetr olmaqla 3 icarəçiyə - Rəşad Yusif oğlu Qasımova, Fadhil Nairooz Abed Abednaya və Amjed Mohammed Abed Msaaaraya icarəyə verilib.




**396 min manata icarə və 100 min manatlıq təmir işləri...**

İcarə müqaviləsinin 5-ci bəndinə görə, icarəyə götürənlərin hər biri aylıq olaraq icarəyə verənə - yəni deputat Hüseynbala Mirələmova 2 min manat verməyi öhdələrinə götürüblər.

İcarə müqaviləsinin şərtinə görə, icarə haqqının hər ay ödənilməsi nəzərdə tutulsa da, "Min bir gecə"ni deputatdan icarəyə götürənlər icarə haqqının 2 illik məbləğini qabaqcadan ödəyiblər.

Həmin müqavilənin 8-ci bəndinə görə - müqavilənin ləğv edilməsi tərəflərin 1 ay qabaqdan yazılı ərizəsinə müvafiq olaraq həyata keçirilməli olub.

Həmin müqavilənin 3-cü bəndinə görə isə - icarə müddəti 01.06.2019-cu il tarixədək müəyyən edilib və bitməsinə 1 ay qalmış tərəflər həmin müqavilənin pozulmasına dair heç bir təklif irəli sürməzlərsə, icarə müddəti daha 1 il müddətinə uzadılmış hesab edilir.

İcarədarlar deputata 2 illik icarə haqqı olaraq ümumilikdə 396 min manat ödəyiblər. İstirahət mərkəzini icarəyə götürdükdən sonra isə orada əsaslı təmir işləri aparıb, müşahidə kameraları, çimərlik ətrafına çətirlər quraşdırıb və s. işlər görülüb.

Ölkə rəhbərliyinə ünvanladıqları açıq məktubda qeyd edirlər ki, deputata məxsus "Min bir gecə"nin təmirinə təxminən 100 min manata yaxın əlavə vəsait xərcləyiblər.

İraqlılar "1001 gecə"də ərəb turistlərə xidmət etmək istədilər...

""Min bir gecə" İstirahət Mərkəzi dəniz kənarında yerləşdiyindən mövsümi iş prinsipinə malikdir. Həmin istirahət mərkəzini icarəyə götürməkdə əsas məqsədimiz ərəb turistlərinin Azərbaycana cəlb edilməsi və turizmin inkişafında azərbaycanlı dostumuza dəstək vermək olub. Bu ilin yay mövsümü yaxınlaşanda istirahət mərkəzinin faktiki sahibi deputat Hüseynbala Mirələmov müqavilə şərtlərini və Azərbaycan qanunlarını kobud şəkildə pozaraq, bizi məlumatlandırmadan müqaviləni ləğv edərək istirahət mərkəzini başqa şəxsə icarəyə verməklə bizə küllü-miqdarda maddi və mənəvi ziyan vurdu. Belə ki, icarə müqaviləsindən də göründüyü kimi, müqavilə 1 iyun 2017-ci il tarixdə bağlanıb və 1 iyun 2019-ci il tarixə kimi qüvvədədir. Buna baxmayaraq, 1 aprel 2018-ci il tarixdə icarəçisi olduğumuz "Min bir gecə" İstirahət Mərkəzinə gəldikdə deputat Hüseynbala Mirələmovun köməkçisi Elşən adlı şəxs bildirdi ki, Mirələmov tapşırıb ki, bizi içəri buraxmasın, "obyekti" başqa adama icarəyə vermişik və sizinlə olan müqaviləni ləğv etmişik. İcarəyə verən Rauf Hüseynbala oğlu Mirələmovun adından etibarnamə əsasında çıxış edən deputat Hüseynbala Mirələmovun bu qanunsuz əməlləri Azərbaycan qanunlarına və Beynəlxalq hüquq normalarına uyğun deyil. Sizin sədrliyiniz ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı çıxışınız ümid yaratdı ki, baş vermiş qanunsuzluğa görə də məsul şəxslər öz layiqli cəzalarını alacaqlar. Milli Məclisinin deputatı Hüseynbala Mirələmovun qanunsuz əməllərinə hüquqi qiymət verilməsi üçün əlaqədar qurumlara göstəriş verməyinizi və bizə dəymiş ziyanın ödənilməsi üçün deputata tapşırıq verilməsini xahiş edirik"-deyə açıq məktubda qeyd olunur.

Xatırladaq ki, deputat Hüseynbala Mirələmovun qardaşı oğlu Rəşad Mirələmov 17 iyul 2012-ci ildə "Min bir gecə" İstirahət Mərkəzində qətl törədib. Bu cinayətə görə bir çox adam həbs edilib. İstintaq zamanı təqsirləndirilən şəxslər Əşrəf Qasımov, Elmar Süleymanov, Səməd Məsimov, Orxan Məlikov, Firdovsi Bağırov və Şahin Novruzov "Min bir gecə" İstirahət Mərkəzində kütləvi dava zamanı Rəşad Mirələmovla mübahisə ediblər. İyulun 17-də gecə saat 03.00 radələrində restoranda dava yenidən başlayıb. Rəşad Mirələmov odlu silahdan açdığı atəş nəticəsində Xəzər rayon sakini Ramal Bayramov döş qəfəsindən, İmişli rayon sakini Səməd İbadət oğlu Mənsimov isə qolundan güllə yarası alıb. Ramal Bayramov aldığı xəsarətdən vəfat edib. Bu məsələdə Hüseynbala Mirələmovun oğlu, polis polkovnik-leytenantı Fərid Mirələmovun da adı hallanıb. Deputatın istirahət mərkəzində baş vermiş cinayətə görə qardaşı oğlu Rəşad Mirələmov ömürlük azadlıqdan məhrum olunub.

❑ E.HÜSEYNOV,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

**Nazirlər Kabinetinin yeni rəhbəri ilə bağlı ilk açıqlamanın müəllifi olaraq deputat, Milli Məclisin Müdafiə, Təhlükəsizlik və Korrupsiyaya qarşı Mübarizə Komitəsinin üzvü Zahid Oruc növbəti dəfə medianın diqqətini özünə cəlb edə bildi. Bundan əvvəl də bir neçə dəfə təsdiqlənən anonsları və proqnozları ilə cəmiyyəti dərindən düşündürən keçmiş prezidentliyə namizədlə geniş müsahibəyə qərar verdik.**

# "İstənilən məmur haqda dosye İlham Əliyevin masası üzərindədir"

## Zahid Oruc: "Vəzifə üçün adını müxtəlif ictimai çarxlarda və virtual şəbəkələrdə təbliğ edən adamların görüntüsünə, özlərini siyasi əmtəə kimi təklif etmələrinə həmişə çox miskin səhnələr kimi baxmışam"



*Müsahibənin ikinci hissəsini təqdim edirik:*

***(Əvvəli ötən sayımızda)***

***- Zahid bəy, kənd təsərrüfatı nazirinin "ASAN xidmət"in sabiq rəhbəri ilə əvəzlənməsi də sürprizlərdən sayıla bilər. Siz necə düşünürsünüz?***

- Həqiqəti desəm, Heydər Əsədovun yetərincə güclü maliyyəçi olduğuna rəğmən, hələ Hesablama Palatasından tərpədildiyi vaxtlarda onun üçün çətin olacağına şübhəm yox idi. Hörmət etdiyim bir insan idi və verilən qərarlar gedənləri yamanlamaq hissi doğurmamalıdır. Hər halda İsmət Abbasovdan qalmış köhnə sovet təsərrüfat obyektinin statusunu qaldıraraq bölgələrə gedən və müxtəlif sektorlarda daxili istehsalı gücləndirməyə çalışan bir naziri qarşımızda görsək də, problemlərin miqyası da hədsiz çox idi. Görünür, prezident artıq gözləməyin ziyanlı olduğunu yəqin edib və belə qərar verib. Xatırlayırsızsa, seçki debatları zamanı efirdən bir müqayisə aparmışdım. Hollandiyanın az qala 1 trilyon avronu yaxalayan büdcəsi ilə, ərazicə Türkiyənin Konya şəhəri boyda olmasına rəğmən, kənd təsərrüfatı sahəsində əldə etdiyi nəticələri həsəd hissi ilə vurğulamışdım. Yaxud da götürək İsveçi. Yararlı torpaqlarının 3,5 milyonunu əkib-becərən bir xalq əmək qabiliyyətli əhalinin 3 faizi ilə əhalinin beşdə dördünün daxili tələbatını ödəyir. 70 minə yaxın fermer təsərrüfatı yaradıblar. Bizsə yararlı torpaqların İsveçdən çoxunu - 4,5 milyonunu istifadə edib heç 50 faiz ehtiyacları qarşılaya bilmirik. Əvəzində kəndin də ağırlığı dövlətin birinci şəxsinin üzərində daşınmaqda davam edir. Ona görə ekrandan söyləmişdim ki, çevik hökumət və vətəndaşın ayağına gedən məmur obrazları dövlət rəhbərinin çiyinlərindəki yükü azaltmalı və ona imkan verməlidir ki, o, regional, beynəlxalq təhlükəsizlik və siyasətlə məşğul ola bilsin.

***- Bəs, konkret olaraq yeni nazir İnam Kərimovla bağlı fikriniz necədir?***

- Yeni nazir ölkənin bir nömrəli brendinə çevrilən ASAN platformasından sonra çox məsuliyyətli bir sahəyə qədəm qoyduğunu yaxşı bilir. Neft məstliyi arxada qalıb. Ona görə də kəndi şəhərin alternativinə çevirərək yaxşı innovasiyaları tətbiq etmək üçün İnam Kərimovun böyük potensialı və xəyal dünyasının olduğuna şübhə etmirəm.

Ümidvaram ki, İnam bəy Qərbin təkcə texnikasını deyil, həmçinin işgüzarlığını və qabaqcıl metodlarını da rəhbərlik edəcəyi qurumda tətbiq etməyi bacaracaq. Menecerlik aqrar sahənin və emal sənayesinin bir nömrəli vəzifəsidir. Bunlar olmasa, nəticə olacaq: çətin qurum!

***- Sizcə, kənd təsərrüfatı naziri təkcə buna görəmi vəzifəsindən çıxarıldı?***

- Hər bir halda istənilən məmur haqda dosye - onun açıq və gizli hissəsi ilə birgə İlham Əliyevin masası üzərindədir. İşarə etdiyiniz digər səbəb, elitar qohumluqların nə dərəcədə burada rol oynadığını təyin eləmək bizə çətindir. Hər halda belə hesablanmış ailə bağları bir qədər şəxsi məsələdir, lakin idarəçilik mənafeləri baxımından və mənəvi nöqteyi-nəzərdən o qədər də uyarlı deyil. Çünki istər-istəməz maraq toqquşmaları hər cür neqativə yol aça bilir.

***- Keçmiş Baş nazir Artur Rəsi-zadə vəzifədən yola salındığı gün bəzi dairələr tərəfindən müsbət xarakterizə olundu, baxmayaraq ki, onun rəhbərlik etdiyi komanda üzvləri tənqid hədəfidir. Ötən 22 ildəki fəaliyyəti boyu sabiq baş nazirin bircə dəfə də olsun gedib hansısa bölgədə xalqla görüşməməsini necə qiymətləndirmək olar?***

- Əvvəlcə onu deyim ki, bir vaxtlar Mircəfər Bağırovun əyləşdiyi kabinetdə sinir deformasiyalarına uğramadan qalmaq çox böyük məharət tələb edirdi. Artur Rəsi-zadə heç vaxt özünə piar-menecerləri tutmadan uzun illər ağır informasiya atəşlərinin altında dövlətə ləyaqətlə xidmət etdi. Hər halda o, fərqli bir epoxanın yetişdirməsiydi. Sovet dövrünün karyera pillələkənləri ilə irəliləməklə indiki kəskin sıçrayışlı zirvə fəthlərini və ya dərəyə yuvarlanmalarını eyni səviyyədə götürmək olmaz. Artur Rəsi-zadə 90-cı illərin qeyri-sabit Azərbaycanında əsl tapıntıydı. Çünki əvvəlki baş nazirlərdən fərqli olaraq, o, hansı miqyasda liderin sərəncamı altında işlədiyini yaxşı bilirdi. Ona görə də hökumətin tərkibində dövlət çevrilişi cəhdləri, yaxud məmur burjuaziyasının çox parlaq nümayəndələrinin olduğu illərdə o, özünə nə idarəçilik səhmləri, nə də iqtisadiyyatda xüsusi pay tələb etmədi. Hərçənd nazir-oliqarxiyası erası yaşanan illərdə də, o, Brejnev dövrünün hökumət başçısı Kosıgin kimi yalnız ölkəsinin iqtisadi göstəriciləri haqda düşünür, onun kreslosu uğrunda gedən daxili mübarizələrə səbrlə dözür və oktyabr inqilabına qədərki Rusiyanın baş nazirlərinin imperator qarşısında daşıdıqları məsuliyyəti bir an belə unutmurdu. O, əvvəlki Ayaz Mütəllibov, Həsən Həsənov və Pənah Hüseynin rəhbəri olduqları "müvəqqəti hökumət"lərin iki prezidentin siyasi məhvinə necə apardığını nəzərə alaraq, heç bir nazir və dövlət adamları ilə konspirativ sövdələşmədə, yaxud xarici mərkəzlərlə işbirliyində ifşa ediləcək əməllərə yol vermədi və karyerasını yüksək dövlət təşəkkürü ilə başa vurdu. Bir qədər emosiyalar soyusun, hər kəs daha ədalətli qiymətləndirmədən çıxış edəcək. Heç vaxt bircə dənə də olsun şəxsi xarakterli müraciət etmədiyim insan kimi sabiq hökumət başçısının elitarlığına, kabineti ətrafında bürokratik zireh qurmadığına və daşıdığı əqidəyə sədaqətinə görə həmişə hörmət etmişəm.

Artur Rəsi-zadəyə dil qüsuru tutanlar vəsf etdikləri müasir Ukrayna inqilabının nəticəsində üç nazirin legioner olduğunu unudurlar. Kiyev hökumətində səhiyyə, maliyyə və iqtisadiyyata rəhbərlik edən şəxslərə Poroşenko yalnız vəzifə verən vaxt onların vətəndaşlıq məsələsi yada düşdü. Gerçəkdə dünya tarixində fərqli millətlərin, hətta yerli dili bilməyən minlərə şəxsin ən müxtəlif ranqlarda dövlətinə xidmət nümunələri var. Məhəlli patriotluq bizə zərbə vurur. Amerikanı güclü edən fərqlərdir. Bir də ana dilində xüsusi ləhcə ilə gözəl danışan Rəhim Qazıyevin xəyanətkar obrazı məgər, qibtə ünvanıdır?

> **"Öz idealı üstünə ləkələr atılan bir parlament üzvü, ya məmur səsini çıxarmayıb susursa, yalnız mövsümi kampaniyalara yarayırsa, prezidentin 7 illik bir dönəmdə seçdiyi strateji kursun mahiyyətini dərk etməkdə acizlik göstərirsə, onu yükə çevirmədən əvəzləmək lazımdır"**

Doğrudur, iradınızın o hissəsinə qatılıram ki, rəğbət doğuran ambisiyasızlıq və elitarlıq keyfiyyələrinə rəğmən ölkənin bütün coğrafi potensialını hərəkətə gətirmək və təsərrüfat qayğılarını öz üzərinə götürmək, o cümlədən həyata keçirilən çoxmilyardlıq layihələrin nəticələrini yerində yoxlamaq sarıdan köhnə hökumət başçısının seçdiyi üslub və idarəçilik modeli dartışmaya layiq idi. Elə ona görə də hesabat zamanı parlamentdə söyləmişdim ki, biz 1 ilin deyil, son 5 ilin və gələcək 7 ilin kontekstində, milli vəzifələri və dövlət başçısının yeni meyarları əsasında yüksək ranqlı məmurların fəaliyyətinə qiymət verməliyik.

***- Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov da vəzifəsindən uzaqlaşdırıldı. Bəs, onu baş nazirin müavini kimi yararlı kadr sayırsınızmı?***

- Başa düşməliyik ki, Hacıbala müəllim ona rəhmətlik Rafael Allahverdiyevdən miras qalan "budka" və çadır köşklərin tüğyan elədiyi paytaxtın simasının dəyişməkdə ilk illər danılmaz xidmətlər göstərdi. Lakin sonralar o, yalnız müxtəlif lətifələrin istehsalçısına çevrildi, fontan və parkların gətirdiyi mənzərəyə vahid baş plan əsasında qurulan şəhər ansamblını əlavə etməyə qadir olmadı. Baxmayaraq ki, ondan kənarda dövlət rəhbərinin aldığı qərarlar Bakını gerçəkdən də Qafqazın zümrüdünə və Şərqin göz oxşayan tablosuna çevirdi, əvəzində şəhər meri öz həmkarlarından, məsələn, Moskva meri Sobyaninindən qat-qat zəif və töküntülü bir obrazda cəmiyyətdə ad çıxardı. Onun musiqili söküntü qərarı, sadəcə, acı gülüş doğururdu, halbuki paytaxt meriyası kimi ciddi bir idarəçilik sütunu onlarla layihəyə müəlliflik edər, büdcədən bir qəpik də almadan xalqa xidmət göstərərdi. Ona görə də ölkə başçısının verdiyi qərarı Hacıbala Abutalıbovun şəxsiyyətindən daha çox, onun siyasi mənsubiyyətinə, xidmət illərinə və sədaqətinə görə göstərdiyi mərhəmət nümunəsi hesab edirəm.

Bakının meri mühüm siyasi vəzifədir. Ona təsərrüfatçı qayğıları ilə, tikinti və xidmət sektoru ilə bərabər, məhz vacib dövlət sütunu kimi yanaşmaq lazımdır.

***- Parlamentin iclaslarında vaxtaşırı yeni ideyalarla çıxış edirsiniz. Maraqlıdır, bəs, sizə necə, hansısa vəzifəni tutmaqla bağlı təklif gəlibmi, yaxud gəlsə, reaksiyanız necə olar? Yeri gəlmişkən, deputat həmkarınız Rövşən Rzayev də yeni komandada yer alıb...***

- Tam səmimi olaraq deyim ki, vəzifə üçün adını müxtəlif ictimai çarxlarda və virtual şəbəkələrdə təbliğ edən adamların görüntüsünə, özlərini siyasi əmtəə kimi təklif etmələrinə həmişə çox miskin səhnələr kimi baxmışam. Ona görə də seçki bitincə, yenidən öz ampluamızda qələm fəaliyyətinə, geopolitik analizlərə və parlament fəaliyyətinə geri döndük. Bəli, bütün seçki dövründə təbliğ etdiyim idealları dövlətin məhək daşı sayıram, lakin müxtəlif sahələrlə bağlı fərqli düşüncələrimizi də hər zaman səsləndiririk. Ona görə də vəzifə deyil, xidmət ən böyük vəzifədir! Heydər Əliyevi Naxçıvanda - mərkəzdən kənarda saxlayanlar məgər ölkə miqyasında "birinci adam" kimi görünürdülər ki? Bəzən şöbə müdiri, yaxud sıravi millət vəkilliyi çox titullu və ünlü sütunlardan yüksəkdə dayanır. Yetər ki, öz sahəndə peşəkarlığa nail olasan, sənətini sevəsən və prezidentin ən yüksək ədalətinə inamını qoruyub saxlayasan. İstərdim sizə bir daha seçki şüarımı xatırladım: "Güclü dövlət rəhbərinə bənzəyir!"

İlham Əliyev siyasi, hərbi və iqtisadi komandasında hamının yerini əla bilir. Qaldı həmkarımız Rövşən Rzayevə, bütün ruhu və qəlbi ilə Xankəndidən - İrəvandan ibarət olan insanın ləyaqətli məmur olacağına, milli davamıza töhfə verəcəyinə və bir gün torpaqlarımız alınarkən o komitənin ləğvini bayram edəcəyinə heç bir şübhəm yoxdur. Rövşən müəllimdən öncə həmkarımız Cavid Qurbanovun dəmir yolları sisteminə təyinatı baş vermişdi. Azca insafı olan adam da deyər ki, "ASAN xidmət" və tarixi xarakter daşıyan dəmir yolları şəbəkələri xarici məkanda Azərbaycanın brendinə çevrilib. Ona görə də parlamentə dövlətin kadr bankı kimi yanaşılması alqışlanandır. Amma heç də bütün həmkarlarımız haqda bu sözləri söyləmək, təəssüf ki, mümkün deyil. Lakin bunu müzakirə etməyi etik saymıram.

***- Zahid bəy, bundan sonrakı dönəmdə hansısa sürprizlər olacaqmı? Məsələn, növbədənkənar parlament seçkilərinə gedilməsini, yaxud islahatlarla bağlı növbəti addımların atılmasını nəzərdə tuturam.***

- Bir ildə 2 seçki çox ağır prosesdir və yüz minlərlə aktiv insanın mənafe davası ölkənin daxili havasını dəyişdirə bilər. Amma onu da yaxşı anlayıram ki, öz idealı üstünə ləkələr atılan bir parlament üzvü, ya məmur səsini çıxarmayıb susursa, yalnız mövsümi kampaniyalara yarayırsa, prezidentin 7 illik bir dönəmdə seçdiyi strateji kursun mahiyyətini dərk etməkdə acizlik göstərirsə, onu yükə çevirmədən əvəzləmək lazımdır. Mənim üçün ulu öndərə xaricdən edilən hücumlara-küfr yayan və bütün müqəddəslərə həqarət yağanlara seyrçi qalan adamlar erməni əsgərinin torpaqlarımıza hücumuna ögey münasibət göstərənlərdən daha təhlükəlidir. Elələri istənilən böhranlı şəraitdə öz cəbhələrini çox asanlıqla dəyişəcəklər. Deməli, yeniləşmə kursu zamanın tələbidir. Lakin onun da öz vaxtı var.

İslahatlar qətiyyən sürpriz sayıla bilməz. Sahibkarı dövlətin müttəfiqinə çevirəcək qərarlar verilirsə, ona sevinmək lazımdır. Standartlaşdırma adı ilə başlayan bir qurum, yaxud inhisarçılıq sahəsindəki problemləri çözmək üçün ayrıca yaradılan struktur nəticədə müdaxilədən azad bir iqtisadiyyat qurmağa imkan verəcək. Varlı bir ölkəyə çevrilməliyik ki, min illik arzularımızdan və mübarizəmizdən sonra qurduğumuz dövlət hamımızın güvəndiyi müqəddəs məbədə dönsün.

❑ **Elşad PAŞASOY,**
**FOTO: "YM"**



# Repatriasiya dövlət proqramı

Zamin HACI
zaminhaci@gmail.com

*"Günün harda xoş keçsə, ora vətəndir"*
(hindu ata sözü)

**Cinayətkar Serj Sərkisyan üçün artıq aprelin 23-ü şəxsi "soyqırımı" günü kimi yadda qalacaqdır. Qarabağlılar artıq orda hakimiyyəti itirdilər. Ermənilərin belə axmaq adamı, nəhayət, bezib rəhbərlikdən rədd eləməsi nəinki özləri üçün, bölgə və dünya üçün də uğurlu addımdır. Hərçənd tarixi təcrübə deyir ki, onun yerinə gələn ağıl və mərifət baxımından heç üstün keyfiyyətlərin yiyəsi olmayacaqdır. Elə o müxalifət lideri Paşinyan adlı tipin küçə-meydanlarda hərbi formada dolaşması nə yuvanın quşu olduğunu bir az göstərirdi.**

Bizdə isə aeroport yolunda tıxac yaranmışdı, müxbirlər yazırdılar ki, bu, tarixdə görünməmiş tıxacdır. Səbəb nə idi? Məncə, Azərbaycan hakimiyyəti xaricə qaçmış xeyli adamı tutub geri gətirdiyi üçün orda sıxlıq olmuşdur. Bəli. "Bizim əllərimiz uzundur" - Ostap İbrahim oğlunun tarixi fikirlərini sitat gətirsək. Kimdən xoşumuz gəlməsə Gürcüstan, Türkiyə, Rusiya demirik, qulaqlayıb vətənə gətiririk ki, burdakı inkişafdan həzz alsınlar, xaraba Almaniyada dilənçilik etməsinlər. Adımız-sanımız var, bizə yaraşmaz xaricə sığınmaq. Gəlin hamınıza iş verək. Gəlməyənləri də gətirib "iş" verək. Özü də lap istər Qrenlandiyada buzlağa sığın, yaxud Burundidə palma ağacında gizlən - xeyri yoxdur. Yerin deşiyindən olsa belə adamı yaxalayıb gətirmək imkanlarımız yaranmışdır. Şair demişkən:

*"Harda olsan gələrəm,*
*Təki sən səslə məni.*
*Darda olsan gələrəm,*
*Təki sən səslə məni".*

Belə güclü, imkanlı dövlətimiz olduğu üçün dərin minnətdarlığımızı bildirir, əmin edirik ki, daha qələt edib xaricə qaçarıq. Ölməyə vətən yaxşı - başqa şair demişkən. Ölüb-qallam burda mən... Nəsə, poeziya elə bil artıq oldu, bu da kövrəkliyimiz, yurd sevgimizin şiddəti üzündəndir. Adamı istər-istəməz ağlamaq tutur ki, Azərbaycandan heç yana qaça bilməzsən. İlbizlər və tısbağalar öz evlərini bellərində gəzdirdikləri kimi, biz də azərbaycançılığımızı, azərbaycanlılıq təfəkkürümüzü daim özümüzlə hər yerə aparırıq, bu çərçivədən qırağa istəsək belə çıxa bilmərik.

Hüseyn Abdullayevin tutulub gətirilməsi məni bir az da nostalji etdi, 90-ları yadıma saldı. O zamanlar da iqtidarımız Surəti, Rəhimi Rusiyadan arxayın şəkildə tutub gətirirdi. Deməli, siyasi kursun ləyaqətli şəkildə davamı söhbətləri elə-belə yaranmamışdır. Taleyin ironiyası bir qədər də orda özünü göstərir ki, deyilənə görə, vaxtilə Hüseyn müəllim azərbaycanlı jurnalist və müxalifətçiləri iqtidara xoş gəlmək üçün eyni metodla Bakıdan oğurlayıb şəhər kənarında döydürürmüş. Quyu qazan dərin qaz - bu el məsəlini hazırda yazmaqdan ləzzət aldığımı acizanə surətdə bəyan edirəm. Bizdə ancaq neft quyusu qazmaq uğurlu hərəkətdir. Şübhəsiz ki, gözüylə görüb ibrət alası adamlar çoxdur.

Afrikada bir balaca ölkə var, adı Svazilend-dir. Camaatın az qala hamısı "SPİD" xəstəliyinə tutulubdur, ancaq olduqca xoşbəxtdirlər. Hər il ölkə kralı üçün təzə arvad alırlar, bu münasibətlə minlərlə bakirə qız bayram mərasiminə toplaşır, rəhbər birini seçir. Bu minvalla artıq kralın 10 arvadı vardır. Keçən həftə həmin kral 2-ci Msvati müəllim Svazilend-in adını dəyişib Esvatini elədiyini dünyaya açıqladı. Çünki qabaqkı ad İsveçrənin adına oxşayırmış.

Bunları niyə yazıram? Məncə, biz də Azərbaycanın adını gərək təzələyək. Bu ad tələffüz baxımından inkişafımızla uyğun gəlmir. Dünya arenasında tanınmağımıza bir qədər mane olur. Gəlin daha qısa, oynaq bir ad seçək. Misal üçün, Azəri Respublikası, yaxud, Baycan Krallığı kimi ola bilər. Lider Dövlət, Odlar Yurdu, Qüdrətli Cümhuriyyət variantları da ağlıma gəlir.

Əlbəttə, bizdə demokratik rejimdir, o üzdən müzakirə edib xalqın bəyəndiyini seçməliyik. Rebrendinq lazımdır, savadlı uşaqların sözü olmasın. Başlığa çıxan söz də bu cür ağıllı sözlərdən biridir, kiminsə didərgin düşdüyü vətəninə qayıtmasını bildirir.



# Azərbaycan prezidenti Türkiyəyə səfər ərəfəsində İsraildən dəvət aldı

## Sabah İlham Əliyev Ankaraya gedir; Netanyahu da prezidentə dəvət göndərdi; strateji tərəfdaş ölkə kimi yəhudi dövləti ilə yaxınlaşma dərinləşmək üzrə - Bakı üçün tarixi dönüş yaxınlaşır; İsrail nəşri Azərbaycanın hərbi gücündən yazdı...

**Sabah - aprelin 25-də prezident İlham Əliyev Türkiyəyə rəsmi səfərə gedir. Bu, 11 aprel seçkilərindən sonra onun xaricə ilk səfəridir və təbii ki, ilk növbədə rəmzi məna daşıyır, dünyaya, dost-düşmənə mesaj xarakterlidir. O anlamda ki, Azərbaycan-Türkiyə münasibətləri "bir millət - iki dövlət" kimi formulə olunur.**

Bu eyni zamanda Bakı və Ankaranın əsas regional və qlobal məsələlərdə vahid mövqedən çıxış etdiyinin, ortaq yanaşma sərgilədiyinin növbəti nümayişi olacaq. Sabahkı səfər həmçinin o anlama gəlir ki, Türkiyənin dərdi daim Azərbaycanın, Azərbaycanın problemi isə Türkiyənin problemi olaraq qalacaq.

Şübhə yox ki, səfər iki strateji müttəfiq dövlət arasında dostluğun və qardaşlığın, ikitərəfli əlaqələrin, o cümlədən hərbi-texniki sahədə əməkdaşlığın bir az da dərinləşməsi ilə yadda qalacaq.

*****

Maraqlıdır ki, İlham Əliyevin Türkiyəyə səfəri ərəfəsi İsrail dövlətinin baş naziri Benyamin Netanyahu Azərbaycan prezidentini öz ölkəsinə dəvət edib. "Yeni Müsavat" qəzetinin Azərbaycan prezidentinin saytına istinadən verdiyi xəbərə görə, dəvət Netanyahunun İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb.

**Sitat:** "Hörmətli cənab prezident, əziz dostum! Azərbaycan prezidenti vəzifəsinə ardıcıl dördüncü dəfə seçilməyiniz münasibətilə İsrail hökuməti adından mənim səmimi təbriklərimi qəbul edin. İsrail ilə Azərbaycan arasında sıx dostluq və əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək üçün bundan sonra da sizinlə əlaqələrimizi davam etdirmək niyyətindəyik. Bu xoş fürsətdən istifadə edərək Sizə münasib olan vaxtda İsrailə səfər etməyiniz barədə təklifimi yenidən ali diqqətinizə çatdırıram. 2016-cı ilin dekabrında Bakıya unudulmaz səfərim zamanı Sizin mənə göstərdiyiniz səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Zati-aliləri, Sizi ən qısa zamanda yenidən görməyə ümid varam".

Dəvətə rəsmi Bakının hansı cavabı verdiyi hələlik bəlli deyil. Bəlli olan budur ki, İsrail Türkiyədən sonra Azərbaycan üçün ikinci mühüm, strateji əhəmiyyətli dövlətdir. Söhbət öncəliklə yəhudi dövləti ilə yüksək səviyyəli hərbi-texniki əməkdaşlıqdan, rəsmi Təl-Əvivin Qarabağ məsələsində tutduğu ədalətli mövqedən və nüfuzlu yəhudi lobbisinin imkanlarından Azərbaycanın xeyrinə istifadədən gedir. Bu mənada İlham Əliyev dəvəti qəbul edib İsrailə getsə, təəccüblü yox, məntiqli olar.

*****

Bu səfərə, yəqin ki, ərəb ölkələrindən çox İrandan etiraz gələcək. Ancaq o da keçici olacaq. Hər halda müsəlman İranın prezidenti başda olmaqla, Tehran rəsmilərinin işğalçı Ermənistanı "su yoluna" döndərdiyi faktdır. Yəni hərənin öz dövlət, milli maraqları var. O zaman niyə Azərbaycan da öz çıxarlarını nəzərə almasın?

Başqa yandan, qardaş Türkiyə İsraillə çoxdan diplomatik əlaqələr qurub - arada cari gərginliklər yaşansa da. İran Türkiyəyə niyə etiraz eləmir o zaman? İsrail səfərinə kimi isə orada Azərbaycanın diplomatik nümayəndəliyi açıla bilər - hansı ki, yenə məhz İranı qıcıqlandırmamaq üçün indiyədək açılmayıb.

Ancaq Tehrana birtərəfli reveranslar zamanı keçib. Üstəlik, təkrar edirik, qardaş Türkiyənin İsraildə səfirliyi varsa, Azərbaycanın da ola bilər. Ən əsası, həm səfərin baş tutması, həm də səfirliyin açılması Azərbaycanın dünyadakı imicini möhkəmləndirər, Qarabağ məsələsində və ermənilərin saxta soyqırımı iddiasına qarşı beynəlxalq yəhudi icmasının daha güclü dəstəyi demək olardı. Bu isə qardaş Türkiyənin da strateji maraqlarına cavab verir.

Həm də o səbəbə ki, Bakının da yəhudi dövlətinə təsir imkanları artmış olacaq ki, bu da öz növbəsində İsrail-Türkiyə anlaşılmazlığının vaxtından aradan qaldırılmasına mühüm töhfə verə bilər. Bu yerdə İsrailin müdafiə naziri, Azərbaycanın lobbistlərindən olan Aviqdor Libermanın br neçə ay öncə söylədiyi bir fikri xatırlatmağa dəyər. Liberman demişdi ki, "İsrail qondarma erməni soyqırımını tanıya bilməz, təkcə ona görə yox ki, bu, tarixi əsası olmayan məsələdir, həm də o səbəb ki, Azərbaycanı incidə bilmərik".

*****

Azərbaycan isə İsrail üçün Bakı-Ceyhan neftinin satıcısı olmaqla yanaşı, etibarlı və qiymətli silah alıcısıdır. Özü də İsrail bəzi müasir silahlarını məhz Azərbaycana verir və onlardan heç Rusiyanın özündə belə, yoxdur. Həmçinin Azərbaycanla bəzi yüksək dəqiqlikli PUA-ların birgə istehsalı qurulub, "Dəmir Günbəz" hava hücumundan müdafiə sistemləri ilə bağlı anlaşma var. Silah ticarətinin həcminə görə isə İsrail Azərbaycan üçün Rusiyadan sonra ikinci yerdədir.

İlham Əliyevin yəhudi dövlətinə səfərini həm də bu amillər diktə edir. Məntiqlə Azərbaycan lideri Rusiyaya - Ermənistanın işğal ortağı olan ölkəyə səfərlər edirsə, səfər istiqaməti kimi strateji tərəfdaş ölkə olan İsrail də seçilə bilər...

Bu arada İsrailin "Haarets" qəzeti Azərbaycanın Ermənistan üzərində üstün hərbi qüdrəti haqda yazı hazırlayıb. "Yeni Müsavat" xəbər verir ki, yazıda İsrailin Azərbaycana verdiyi yüksək dəqiqlikli silah-sistemlərdən, o sırada kamikadze-dronlardan (PUA) da söz açılır. "Təxminən iki il öncə (aprel döyüşləri nəzərdə tutulur - red.) "Wasington Post" yazmışdı ki, adıçəkilən dronları Qarabağda görüblər. Bu dronları həm qurudan, həm də dənizdən idarə eləmək mümkündür", - deyə yazıda qeyd olunur.

Daha sonra baş nazir Netanyahunun il yarım öncəki Bakı səfəri yada salınır: "Bu səfər zamanı prezident İlham Əliyev bəyan edib ki, onun ölkəsi ilə İsrail arasında "müdafiə texnikası" almaq üçün 4.85 milyard dollar həcmində müqavilələr imzalanıb. Həmin müqavilələrin bir hissəsi artıq həyata keçib və biz əməkdaşlığımızdan razıyıq", - deyə Əliyev bildirib. Əliyev habelə deyib ki, hər iki tərəf artıq neçə ildir təhlükəsizlik sahəsi üzrə məhsuldar şəkildə əməkdaşlıq edir.

Məqalə bu sözlərlə bitir: "Son illər yük təyyarələri Azərbaycan və İsrail arasında çoxsaylı reyslər edir. SILKWAY aviya yük daşıyıcı şirkətinin təyyarələri müntəzəm şəkildə həftədə üç dəfə Ben-Quruon hava limanına enir. Beynəlxalq uçuşlara dair açıq saytların məlumatına görə, son iki ildə Azərbaycanın Müdafiə Nazirliyinin təyyarələri İsrailin cənubundakı hərbi bazaya 6 eniş edib və boşalandan və ya yük götürəndən bir neçə saat sonra havaya qalxıb..."

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

# ABŞ Dövlət Departamentinin hesabatı etiraz doğurdu

**ABŞ Dövlət Departamentinin dünya ölkələrindəki insan haqlarının durumuna dair illik hesabatı yayılıb. Hesabatın Azərbaycanla bağlı hissəsində deyilir ki, ölkədə daha öncəki illər baş verən insan haqları ilə bağlı problemlər 2017-ci ildə də davam edib. Ən ciddi insan haqları pozuntuları sırasında məhbusların ölümü, işgəncələr, ağır və bəzi hallarda həyata təhlükə yaradan saxlanılma şəraiti, ixtiyari həbslər, hüquqi azadlığın olmaması, siyasi məhbuslar, ifadə azadlığına basqılar, jurnalistlərə qarşı fiziki təhdid, özəl həyata müdaxilə, toplaşma hüququna qarşı məhdudiyyətlər və digərləri misal göstərilib.**





**Əli Həsənov:** "Dövlət Departamentinin Azərbaycandakı vəziyyətə münasibəti həmişəki kimi yenə də tendensioz xarakter daşıyıb"
**Elman Nəsirov:** "Azərbaycana qarşı təzyiq, diktə dili ilə danışmaq siyasəti qəbuledilməzdir"

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** Trend-ə bildirib ki, ABŞ Dövlət Departamentinin Azərbaycandakı vəziyyətə münasibəti həmişəki kimi yenə də tendensioz xarakter daşıyıb: "Hesabatın hazırlanma metodologiyası hər bir məsələyə dair konkret bir, bəzi hallarda isə bir neçə faktın konstatasiyası, onların müəyyən siyasi dairələrin maraqlarına uyğun, qərəzli şəkildə təsviri, müvafiq nəticənin hasil edilməsi və bütün sahə üzrə ümumiləşdirilməsi prinsipi üzərində qurulub. Belə yanaşma, habelə mənbələrin göstərilməməsi, bir qayda olaraq "ekspertlər", "fəallar", "QHT təmsilçiləri" və bu kimi müəmmalı "mənbələrə" "istinad edilməsi" hesabatın obyektivliyini və şəffaflığını ciddi şübhə altına alır".

Əli Həsənov qeyd edib ki, 2013-cü il prezident seçkiləri də daxil olmaqla, Azərbaycanda keçirilən bütün seçkilər beynəlxalq standartlara və Azərbaycan qanunvericiliyinə uyğun, demokratik, ədalətli və şəffaf olub. Xalqın iradəsini əks etdirib. Bu fakt çoxsaylı xarici və beynəlxalq müşahidəçi qruplarının açıqlamalarında və hesabatlarında da öz əksini tapıb: "Azərbaycan demokratik dövlətdir, Konstitusiya normalarına uyğun olaraq ölkədə qanunverici, icra və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyəti təmin olunub. Buna görə də hansısa şübhəli "faktlar" əsasında hakimiyyət qanadlarının, ayrı-ayrı dövlət orqanlarının nüfuzunu aşağılayan qərəzli iddiaları qəbul etmirik və onları ciddi əsası olmayan subyektiv mülahizə kimi qiymətləndiririk".

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanda söz və məlumat, sərbəst toplaşmaq azadlığı, fikir plüralizmi də daxil olmaqla, bütün demokratik normalar təmin olunub: "Ölkədə yüzlərlə kütləvi informasiya vasitəsi, çoxsaylı jurnalist ordusu tam sərbəst fəaliyyət göstərir. Sosial şəbəkələrdə istifadəçilərin sayı 3 milyona yaxınlaşır, ölkə əhalisinin 80 faizi internet istifadəçisidir. Bu gün Azərbaycanda 3 mindən çox QHT fəaliyyət göstərir və öz təşəbbüsləri, praktiki addımları ilə cəmiyyət həyatının bütün sahələrinin inkişafına əməli töhfələr verirlər. Odur ki, hesabatda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin "məhdudlaşdırılması" barədə iddialar yalnız təəssüf doğurur".

Ə.Həsənov əlavə edib ki, 2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında seçki mədəniyyətinin qənaətbəxş səviyyədə olduğunu təsdiq etməklə yanaşı, həm də partiyaların siyasi proseslərdə iştirak səviyyəsini əyani şəkildə göstərdi: "Avropa və Amerikada olduğu kimi, Azərbaycanda da marginallaşmış siyasi qruplar cəmiyyət tərəfindən inkar edilir, öz ambisiyalarını reallaşdırmaq imkanları getdikcə itirirlər. Bu, Azərbaycanda siyasi sistemin çatışmazlığı deyil, əksinə, cəmiyyət həyatında təhlükəsizliyi, sabitliyi, tolerantlığı təmin edən mühüm üstünlükdür. Təəssüf ki, Dövlət Departamentinin hesabatında bu kimi məsələlər də tərs-mütənasib təsvir olunur və arzuolunmaz nəticələr hasil edilib.

O ki qaldı hesabatda "siyasi məhbuslar", "təzyiqlər", "həbslər" və digər bu kimi iddialara, hesab edirik ki, Qərb ölkələrində bu kimi faktlar daha çoxdur. Həmin faktlar Dövlət Departamenti tərəfindən eyni metodologiya əsasında şərh olunarsa, hansı nəticələrin ortaya çıxacağını təsəvvür edə bilərik".

**Azərbaycan Milli Məclisinin deputatı Elman Nəsirov "Yeni Müsavat"a** açıqlamasında Dövlət Departamentinin Azərbaycanla bağlı yazdıqlarının əsassız olduğunu bildirib. Bu hesabatda Azərbaycanla bağlı hissə tamamilə qərəzli yanaşmadır: "Əvvəla, o səbəbdən ki, Azərbaycan son 15 il ərzində demokratik inkişaf yolunda çox ciddi addımlar atıb. Azərbaycanda söz, mətbuat, sərbəst toplaşmaq azadlığı, siyasi fəaliyyət azadlığı tam təmin edilib. Eyni zamanda Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində çox ciddi müsbət tendensiyalar var. Demokratiyanın ən mühüm göstəricilərindən biri odur ki, fikir azadlığı olsun. Bu gün əhalinin 80 faizi azad şəkildə internetdən istifadə edir. Əgər bir ölkənin əhalisinin 80 faizinin internetdən istifadə imkanı və azad şəkildə sosial şəbəkələrdən istifadə etmək imkanı varsa, onda bu halda Azərbaycanda insan hüquq və azadlıqları sahəsində, demokratiya sahəsində ciddi problemlərin olmasından bəhs etmək ikili standartların, Azərbaycana qarşı qərəzli yanaşmanın nəticəsidir. Azərbaycanda guya siyasi məhbusların olması, həbsxanalarda məhbuslara münasibətdə işgəncələrin olması, jurnalistlərə qarşı təzyiqlərin olması, söz, mətbuat və sərbəst toplaşmaq azadlığı sahəsində ciddi problemlərin olması ilə bağlı Dövlət Departamentinin hesabatındakı fikirlər tamamilə reallığa ziddir, ədalətsizdir. Bu, birbaşa anti-Azərbaycan siyasi dairələrin təqdim etdikləri əsassız mənbələr əsasında hazırlanmış hesabatdır. Azərbaycanda həm siyasi, həm iqtisadi islahatlar paralel şəkildə aparılır və aparılmaqdadır. ABŞ-ın əksər ştatlarında ölüm cəzası saxlanılır. Amma Azərbaycanda ölüm hökmü ləğv edilib. Azərbaycanda hələ ulu öndərin zamanında mətbuatda senzura tamamilə ləğv edilib. Həmin siyasəti Azərbaycan prezidenti İlham Əliyev davam etdirir. Azərbaycan prezidenti İlham Əliyev andiçmə mərasimində də dedi ki, biz demokratik inkişaf yolu seçimini kimlərinsə xoşuna gəlmək, yəni Dövlət Departamentinin xoşuna gəlmək üçün etməmişik. Bu, bizim dövlət idarəçilik fəlsəfəmizdən irəli gəlir. Demokratik inkişaf yolu bizim seçimimizdir. Azərbaycanda keçirilən hər seçki xalqın siyasi iradəsinin ifadəsi olur. Odur ki, Dövlət Departamentinin hesabatındakı Azərbaycanla bağlı fikirlər bizdə çox böyük anlaşılmazlıqla qarşılanır".

Deputat qeyd etdi ki, Dövlət Departamenti obyektivlik iddiasındadırsa, niyə Ermənistanda insan hüquqları ilə bağlı məsələlərdə belə obyektivliyi nümayiş etdirmir. Ermənistanda insan hüquq və azadlıqlarından danışmağın özü, ümumiyyətlə, mənasını itirib. Lakin ABŞ Dövlət Departamenti oradakı vəziyyəti görməzlikdən gəlir: "Ermənistanda hakimiyyətə etiraz edən xalqa qarşı güc tətbiq edilir, təzyiq üsulları işə salınır, deputatlar həbs edilir, oğurlanır. Bəs, niyə Dövlət Departamenti bu vəziyyətlə bağlı qəti mövqeyini ortaya qoymur? Bax, bu cür düşündürücü suallar var ki, buna cavab verilməlidir".

O ki qaldı Dövlət Departamentinin hesabatında Azərbaycanla bağlı məlum fikirlərin iki ölkə arasında münasibətlərə təsir etməsinə, Azərbaycan dövləti xarici siyasətdə balanslaşdırılmış siyasət yürüdür. Bu siyasəti prezident İlham Əliyev peşəkarcasına davam etdirir. Azərbaycan ABŞ-la əlaqələrin inkişafı xəttinə sadiqdir: "Biz Birləşmiş Ştatları strateji tərəfdaşımız hesab edirik. Bu məntiqlə də münasibətlərimizi qururuq. Münasibətlərimizdə bərabər hüquq, bir-birinin daxili işlərinə qarışmamaq, qarşılıqlı faydalı münasibətlər əsas prinsiplərdir. Biz bundan çıxış edərək istənilən dövlətlə, eyni zamanda ABŞ-la münasibətlərimizi tənzimləyirik. Azərbaycana qarşı təzyiq, diktə dili ilə danışmaq siyasəti qəbuledilməzdir. Azərbaycan öz yolu ilə gedir və heç kimin daxili işlərinə qarışmır. Eyni zamanda bizim də daxili işlərimizə qarışmağın əleyhinəyik. Münasibətlərdə hər hansı anlaşılmazlığın yaranmasına görə məsuliyyət qarşı tərəfin üzərinə düşür. Azərbaycan qarşı ədalətsiz münasibətin ortaya qoyulması Azərbaycan-ABŞ münasibətlərinin nə bu gününə, nə də perspektivinə xidmət etmir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## "AŞPA-da Azərbaycana qarşı korrupsiya iddiaları iflasa uğradı"

**Elxan Süleymanov:** "AŞPA ölkəmi böhtanlarla təhdid etmək əvəzinə, vacib problemlərin aradan qaldırılması ilə məşğul olmalıdır"

**"Strasburqda AŞPA-da korrupsiya iddialarını araşdıran Müstəqil Kənar İstintaq Orqanı (İBAC) Assambleya Bürosuna öz məruzəsini təqdim etdi.**

İstintaq orqanı Azərbaycana qarşı korrupsiya iddiaları ilə bağlı heç bir fakt aşkarlamamış və son nəticədə AŞPA-nın ölkəmizlə əlaqədar fəaliyyətlərində AŞPA deputatlarının, xüsusilə məruzəçilərinin heç də neytrallıq tələblərinin pozulmadığı qənaətinə gəlmişdir". Bunu müsavat.com-a göndərdiyi açıqlamada **millət vəkili Elxan Süleymanov** bildirib.

O daha sonra qeyd edir: "Son iki ildə Azərbaycana qarşı saxta iddialar yayan və dəstəkləyən müəyyən dairələr, xüsusilə Sorosun maliyyələşdirdiyi QHT-lər və media qrupları tərəfindən Qərbi Avropa mediasında yer alan şişirdilmiş başlıqlar AŞPA-nın normal fəaliyyətini iflic etmişdi.

Son illərdə bu kimi təkrar və qeyri-ciddi açıqlamalar AŞPA-nın onsuz da müsbət olmayan beynəlxalq nüfuzuna ciddi xələl gətirsə də, indi aydın olur ki, iddialar nəticə etibarilə əsassız, uydurma və qərəzli imiş.

İstintaq orqanı təsdiq etdi ki, 2008-ci ildən bəri AŞPA-nın Azərbaycanla bağlı bütün məruzələri, o cümlədən seçki müşahidə missiyalarının bütün məruzələri və öz məğlubiyyətləri ilə barışmaq istəməyən güc mərkəzlərinin və anti-Azərbaycan qüvvələrin müzakirə obyektinə çevrilmiş 2013-cü il tarixli "siyasi məhbus"lara dair Ştrasser məruzəsi deputatların neytrallığına təsir göstərilmədən qəbul edilib və beləliklə, bu məruzələr və onların siyasi məzmunu tamamilə qüvvədə qalır.

İstintaq orqanı məruzənin əvvəlində bəzi qərəzli QHT-lərin əvvəlki iddialarını təkrar-təkrar yazsa da, hərtərəfli araşdırmadan sonra hər hansı tutarlı fakt və sübutu təmin edə bilməyib. Onlar, əlbəttə ki, həyata keçirilməsi qeyri-mümkün olan, lakin, digər tərəfdən, Azərbaycanın düşmənlərinin çox gözlədiyi məqamı həyata keçirə bilmədilər.

Mən eyni zamanda təəssüf edirəm ki, istintaq orqanı bütün diqqəti Azərbaycanın üzərinə yönəldib, lakin o, digər 6 üzv dövlətə qarşı oxşar iddialara 200 səhifəlik məruzənin cəmi bir səhifəsində münasibət bildirib. Bu məruzə obyektivlik və neytrallığa xidmət etmir.

Nəhayət, beynəlxalq aləmdə Azərbaycanın imicinə zərbə vurmaq məqsədi daşıyan bu lazımsız şou AŞPA-nın ciddi büdcə problemlərindən əziyyət çəkdiyi bir dönəmdə bu istintaqın xərci vergiödəyicilərinin 200000 avrosunun boş yerə xərclənməsi ilə nəticələndi.

Hesab edirəm ki, AŞPA ölkəmi böhtanlarla təhdid etmək əvəzinə, Avropanın miqrasiya, ümumi təhlükəsizlik və büdcə məsələləri kimi böyük problemlərdən əziyyət çəkdiyi bir vaxtda, bu vacib problemlərin aradan qaldırılması ilə məşğul olmalıdır".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018



# Axırıncı aşırım - Sərkisyan onu aşa bilmədi...

**Hüseynbala SƏLİMOV**

**Doğrusu, bir qədər gözləməli olduq. Xəbər verilmişdi ki, oyuncaq prezident Armen Sərkisyanın etirazçılarla görüşündən sonra müxalifət lideri Nikol Paşinyanın artıq baş nazir vəzifəsini icrasına başlayan Sərkisyanla görüşünü təşkil etmək qərara alınıb.**

Nəhayət, agentliklər xəbər yaydı ki, görüş nəticəsiz bitib, S.Sərkisyan nümayişkaranə şəkildə görüş yerini tərk edib. Daha sonra məlumatlar daxil oldu ki, N.Paşinyan daha iki deputat həmkarı ilə birlikdə saxlanılıb və digər etirazçılara qarşı da zor tətbiq edilib, yüzlərlə insan həbs edilib.

Bəli, artıq demək olardı ki, proses öz kulminasiya nöqtəsinə çatıbdır. Paşinyanın həbsinin iki cür təsiri ola bilərdi: etirazlar ya güclənəcəkdi, ya da əksinə, zəifləyəcəkdi...

Buna sinergetikada "bifurkasiya nöqtəsi" də deyirlər, - bu nöqtədən sistem bir neçə hala keçə bilir və onların hər biri haqqında isə yalnız müəyyən ehtimalla danışmaq mümkün olur.

Vəziyyətin qəribəliyi ondadır ki, S.Sərkisyanın işləri pis getmirdi: əvvəlcə ölkənin siyasi modelinin dəyişdirilməsi ideyasını qəbul etdirdi, daha sonra guya parlament seçkilərini uddu, bundan sonra isə Londonda rahat həyatını yaşayan Armen Sərkisyanın başını tovlayıb onu prezident olmağa razı sala bildi...

Artıq sonuncu aşırım qalırdı. Amma burada kartlar qarışdı. Ermənistandan kənarda bir o qədər də tanınmayan müxalifətçi Paşinyan bir neçə günün içində aranı əməlli-başlı qarışdırdı.

Elə Paşinyanın da işləri pis getmirdi. Tez bir zamanda aksiyalara beynəlxalq dəstək gəldi, bir neçə tanınmış ziyalı və mədəniyyət xadimi aksiyalara dəstək verdi və ən başlıcası da bəlli oldu ki, Qərbdəki erməni diasporu artıq S.Sarkisyanı müdafiə etmir.

Düzdür, V.Putin tələsik Sərkisyanı təbrik etdi. Bu da kartları bir azacıq qarışdırırdı və həm də o anlama gəldi ki, Kremlin S.Sərkisyan dəyişmək fikri yoxdur.

Putin Sərkisyana nə deyəcəkdi ki? Məgər özü eyni siyasi maskaradı Rusiyada qurmamışdımı? Məgər Putin özü keçmiş sovetlər məkanında ilk "uzunömürlü siyasilər"dən deyildimi?..

Ona görə də çox kritik, bir azacıq əvvəldə dediyimiz kimi, kuliminasiyon bir nöqtəyə gəlib çatmışdı Ermənistan. Digər amil bu idi ki, proseslər ermənilərin qondarma "soyqırımı günü" ərəfəsində baş verirdi və bu axmaq xalq hətta bu cür gərgin vəziyyətdə "soyqırım"la bağlı təbliğat aparmağı da unutmurdu: bu günlərdə məlum oldu ki, ABŞ-da 100-ə yaxın konqresmen D.Trampa müraciət edib. Amma düşünürük, tamam faydasızdır, onlar hər il belə edir, gəl, faydası olmur.

Fikirləşirdik ki, bu dəfə əsl soyqırımı Serj Sərkisyan təşkil edəcək. Amma əvvəlcə proseslərin sonu ilə bağlı konkret söz demək o qədər də asan deyildi.

Bir neçə saytdan S.Sərkisyanın tələblərini də oxumuşduq: Vallah, bu adamın başında problem var, deyirdi ki, yalnız Qarabağ problemini həll edəndən sonra hakimiyyətdən gedəcək...

Elə ona görə də zənn edirdik ki, Ermənistanda "məxməri inqilab" ssenarisi tamam cəfəngiyatdır: burada ciddi şey olsa, mütləq qanla, zorakılıqla müşayiət olunacaq, çünki hakimiyyətdə L.Ter-Petrosyan kimi "kitab-dəftər adamı" yox, hiyləgər müharibə köpəyidir...

Bu adam üçün öldürmək, kəsmək adi iş idi, üstəlik, Ermənistanda bunu artıq bir dəfə etmişdi və N.Paşinyan da bunu yaxşı bilirdi. Elə bu səbəbdən nəticələrlə tələsmirdik. Bəlli olanı bu idi ki, o, Serj Sərkisyan hakimiyyətdən getmək istəmir və etirazlar da onu qorxutmur.

Hey düşünürdük ki, bəs bunun sonu nə olacaqdır? Bəli, son artıq bəllidir - Sərkisyan istefa veribdir...

Aydın məsələ idi ki, qondarma "genosid günü"ndən hər iki tərəf faydalanmağa çalışacaq. Müxalifətin bundan necə faydalanmağa cəhd edəcəyi tamam bəllidi.

O ki qaldı Sərkisyana, o da bundan "milli birliyi və həmrəyliyi" bərpa etmək üçün istifadə etməyə çalışacaqdı, amma o günədək qala bilmədi hakimiyyətdə...

Çox yaxşı olardı ki, həmin gün bunların arasına qırğın düşsün və ermənilər anlasınlar ki, hətta yüz il bundan əvvəl də heç bir "genosid" - filan olmayıb, sadəcə, ermənilərin öz siyasətçilərinin AVANTÜRASI olub və AVANTÜRA indi də davam edir...

**Azərbaycanın dövlət qurucuları haqqında daim hiddət doğuran açıqlamalar verən ASDP sədri, deputat Araz Əlizadə növbəti dəfə gündəmə gəlib. A.Əlizadə sfera.az-a açıqlamasında Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadə və AXC-Müsavat hökuməti ilə bağlı qalmaqallı fikirlər səsləndirib.**

# Araz Əlizadənin ildə bir neçə dəfə başına düşən "Rəsulzadə daşı"...

## **Razi Nurullayev:** "Belə fikirlər səsləndikcə Rəsulzadəyə xalqın məhəbbəti daha da artır"

## **Nəsiman Yaqublu:** "Bu şəxs dediklərimə inanmırsa, getsin tarixi oxusun"

Deputat M.Ə.Rəsulzadəyə heykəl qoyulmaması ilə bağlı suala belə cavab verib: "AXC-Müsavat hakimiyyətdə olduğu bir il ərzində nə üçün Məhəmməd Əmin Rəsulzadəyə heykəl qoymayıb? Çünki həmin vaxtı xalqı qarət etməklə məşğul idilər. Məgər Məhəmməd Əmin Rəsulzadəyə heykəl qoymağa vaxtları çatmadı? Görünür, onlar özlərini Azərbaycan Xalq Cümhuriyyətinin xələfi kimi göstərmək istəyirlər. Kim Məhəmməd Əmin Rəsulzadənin abidəsini görmək istəyirsə, getsin onun doğulduğu Novxanıya. Novxanı da Bakının ərazisidir. Məni bağışlayın, axı bir adama neçə heykəl qoyulmalıdır? Vaxtilə Vladimir Leninə də nə qədər abidə, heykəl qoyulmuşdu, amma sonra hamısı götürüldü. Müasir Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevdir, vəssalam! AXC-Müsavat fəalları istəyir ki, Məhəmməd Əmin Rəsulzadəyə hər yerdə abidə qoyulsun, bunlar da hər yerdə car çəksin ki, müasir Azərbaycanın yaradıcısı Məhəmməd Əmin Rəsulzadə və ya digər şəxslərdir. Bir də gördün ki, sabah gəlib İsa Qəmbərə, Əli Kərimliyə də abidə qoyulmasını dedilər. Mənim atam müasir şərqşünaslıq elminin banilərindən biridir. Ancaq atamın cəmi bir abidəsi var, o da qəbiristanlıqdadır. Bir də atamın abidəsi onun yaratdığı elmi əsərləri və yetişdirdiyi tələbələridir. Heykəli qoyub sonra yığışdırmağın nə mənası var? Vaxtilə heykəlləri yığışdıranlar məhz Rəsulzadənin tərəfdarları olub. Bilirsiniz, heykəl sənət əsəridir. Sənət əsəri kimi də Məhəmməd Əmin Rəsulzadəyə Novxanıda çox gözəl heykəl qoyulub. Nə üçün radikal müxalifət Fətəli xan Xoyskiyə, Əlimərdan bəy Topçubaşova deyil, məhz Məhəmməd Əmin Rəsulzadəyə abidə qoyulmasını istəyir? Məgər Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun Azərbaycana xidmətləri Məhəmməd Əmin Rəsulzadədən az olub? Radikal müxalifət ona görə sırf Məhəmməd Əmin Rəsulzadənin adını irəli çəkir ki, Rəsulzadə Müsavat Partiyasının lideri olub. Bütün bunlar da bir daha onu göstərir ki, Müsavat boş-boş söhbətlərin başında dayanır. Mən deməm ki, Məhəmməd Əmin



Razi Nurullayev

Rəsulzadənin xidmətləri olmayıb. Sadəcə olaraq, Fətəli xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun xidmətləri daha çox olub".

Qeyd edək ki, indiyə qədər A.Əlizadə və qardaşı, politoloq Zərdüşt Əlizadə dəfələrlə bu cür açıqlamalar verərək, Rəsulzadə başda olmaqla, dövlət qurucularını aşağılayıblar. Onlara lazımi reaksiyalar verilmədiyi üçün bu qardaşlar sarsaq fikirlərinin dozasını durmadan artırırlar. Bir faktı deyək ki, A.Əlizadə iki il yarımdır deputatdır və bu müddət ərzində ən çox belə fikirləri ilə gündəmi zəbt etməyi bacarıb. Onun haqqında Milli Məclis tərəfindən bir dəfə də olsun ölçü götürülməyib. Heç deputat həmkarları da onu ən azından qınamırlar. Hətta onun bu cür fikirləri ilə bağlı deputatlardan mövqelər almaq istədikdə ya suallardan yayınır, ya da cavab verməkdə istəmirlər. Bu dəfə də belə oldu. Bir neçə deputatdan mövqe almaq cəhdlərimiz uğursuz oldu.

Prezident seçkilərində namizəd olan və seçki debatlarında M.Ə.Rəsulzadə və mərhum prezidentlər Əbülfəz Elçibəy, Heydər Əliyevə ayrı-ayrılıqda layiqli qiymətin verilməsini vacib sayan yeni **AXCP-nin sədri Razi Nurullayev isə "Yeni Müsavat"a** açıqlamasında A.Əlizadəyə bu cür reaksiya verdi: "Belə məsələlərin bu şəkildə müzakirəsinə qarşıyam. Həm Araz Əlizadə, həm də qardaşı Zərdüşt Əlizadə zaman-zaman belə fikirlər səsləndirirlər. Media da bunu bütün Azərbaycana yayımlayır. Bütün bu məsələlərə belə diqqət vermək lazım deyil. Onun üçün də bu qardaşların fikirlərinə münasibət bildirməyəcəm, amma öz bildiklərimi deyəcəm. Məhəmməd Əmin Rəsulzadə məhəbbəti xalqımızın içindədir. Onu silmək mümkün deyil. Bunu Azərbaycan cəmiyyəti dəfələrlə sübut edib. Onun üçün də hakimiyyət Cümhuriyyətimizin yüz illiyinin dövlət səviyyəsində qeyd olunması barədə qərar qəbul etdi. Mənə elə gəlir ki, hakimiyyətin bu qərarı verməsi onların Rəsulzadə və Cümhuriyyətimizə olan münasibətini də ortaya qoydu. Bundan sonra Rəsulzadə və onun komandası haqqında belə fikirlər səsləndirməyin heç bir mənası olmayacaq. Əbülfəz Elçibəy də Azərbaycan xalqının azadlıq simvoludur. Bu simvol daim qalacaq. Ölkəmizə ikinci müstəqilliyin gətirilməsində önəmli rolu olan şəxsiyyətlərdən biri də odur. Bunu da xalqın qəlbindən silmək mümkün deyil. Heydər Əliyevə də xalq məhəbbəti var. Bunu hər addımda görə bilirik. Bundan çıxış edərək o fikirləri səsləndirmişdim ki, Azərbaycanın indiki inkişaf dönəmində bu şəxsiyyətləri bir-birindən ayırmaq cəmiyyətdə qarşıdurma yaradır. Bunun üçün də indiki vaxtda hər üç şəxsiyyətə bərabər qiymət verilməlidir. Heydər Əliyev layiq olduğu qiyməti alıb, hər zaman təbliğ olunur, heykəlləri hər tərəfdə qoyulub, bütün dövlət tədbirlərində anılır, Fəxri xiyabanda onu ziyarət edərək protokollara salınıb. Bu dərəcədə olmasa da, Əbülfəz Elçibəy və Rəsulzadəyə də belə münasibətin göstərilməsinin tərəfdarıyam ki, cəmiyyətdə bir barış mühiti yaransın. Sonrakı nəsillər qiymət versin ki, kim birinci, ikinci, yaxud da üçüncüdür. Hər üç şəxsiyyətin tənqid olunmasını anormal hesab edirəm. Araz Əlizadə və onun kimi başqalarının belə fikirlər səsləndirmələrinə heç zaman normal yanaşmaq olmaz. Mən də belə açıqlamalardan çox narahat oluram. Sanki onların adları çəkilən şəxsiyyətlərə qarşı patoloji nifrətləri var. Burada söhbət ideoloji nifrətdən getmir. Onların nə üçün belə etdikləri sualının cavabını tapa bilmirəm. Belə məsələlərlə gündəmə gəlmək olmaz. Onlar da çox gözəl bilirlər ki, xalq onların dediklərini qəbul etmir. Təəssüflər olsun ki, dediklərinə davam edirlər. Bununla bağlı iqtidar və ya Milli Məclisin tədbir görüb-görməməsi onların öz səlahiyyətləridir. Münasibət bildirməmək də onların öz hüquqlarıdır. Rəsulzadə və Elçibəysevərlər heç zaman bu cür yanaşmaları qəbul edə bilməzlər. Bu cür fikirlər səsləndikcə Rəsulzadə və Elçibəyə xalqın məhəbbəti daha da artır".

**Rəsulzadə irsinin araşdırıcısı, tarixçi-alim Nəsiman Yaqublu** qısa danışdı: "Tutduğu mövqeyə görə Rəsulzadə Xalq Cümhuriyyətinin başçısı sayılır - yəni Milli Şuranın sədri olması ilə. Əgər bu şəxs fikirlərimə inanmırsa, getsin tarixi oxusun. Onda görəcək ki, orada nə cür yazılıb. Elçibəy hakimiyyəti dövründə Rəsulzadəyə heykəllər, büstlər qoyulub. 1993-cü ilin mayında Zaqatalada Rəsulzadəyə qoyulan heykəlin böyük bir açılışı olub, mən də o açılışda iştirak etmişəm. Təkcə bu fakt onun dediklərinin uydurma olduğunu göstərir. Təəssüflər olsun ki, zaman Elçibəy hökumətinə daha böyük yerlərdə Rəsulzadəyə heykəllərin qoyulmasına imkan vermədi. Cümhuriyyət quruculuğu dövründə heç kimin fəaliyyəti digərindən üstün olmayıb. Hamının fəaliyyəti eyni cür olub. Onlar xalq, vətən üçün birgə çalışıblar. O şəxslərə vəzifə maraqlandırmırdı. Əlimərdan bəy Topçubaçov parlamentin sədri seçilsə də, bir saat belə o kürsüdə oturmamışdı".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

**Ermənistanda hakim rejimə qarşı etiraz hərəkatı dünən - 11-ci gün pik nöqtəsinə çatması ilə yadda qaldı. Aksiyalara hərbçilərin və polis əməkdaşlarının, o cümlədən din xadimlərinin də qoşulması baş nazir Serj Sərkisyanın bu dəfə qurtula bilməyəcəyini deməyə əsas verirdi.**








# Xocalı soyqırımının əsas səbəbkarı Ermənistanda hakimiyyətdən qovuldu

## Düşmən dövlətdə xalq cinayətkar xuntaya yox dedi; ermənilər ölkəni öz biznesinə çevirən mafioz klandan canını qurtardı

Belə ki, vəziyyətin gərginləşdiyini görən sabiq baş nazir, hazırkı baş nazirin birinci müavini Karen Karapetyan aprelin 22-də qanunsuz toplantı keçirdikləri üçün saxlanılan deputatlar Nikol Paşinyan, Ararat Mirzoyan və Sasuna Mikaelyanın azad edilməsi üçün hərəkətə keçib. O, bununla bağlı Ermənistanın Baş Prokurorluğuna müraciət edib.

Baş nazirin müavini Paşinyanla da görüşüb. Çox güman ki, bununla K.Karapetyan həm də özünə xalq arasında müsbət imic qazanıb və S.Sərkisyanın yerində oturmaq istəyir. Maraqlıdır ki, Karapetyanın bu bəyanatından az sonra Paşinyan və digər iki deputat sərbəst buraxılıb. Bu isə onların azad olunmasından imtina edən S.Sərkisyanın sonuna işarə sayılırdı.

Nikol Paşinyan həbsdən niyə azad edildiyinə aydınlıq gətirib: "Məni həbsdən hakimiyyət dəyişikliyi olduğu üçün azad ediblər. Hakimiyyət xalqa keçib". Dünən İrəvandakı izdihamlı mitinqə 10 minlərlə adam qatılıb. Bundan başqa, axşam mitinqlərinin də davam etdiriləcəyi bildirilib.

Dünən İrəvanın Azadlıq meydanından başlayan növbəti yürüşə 2016-cı il aprel döyüşünün iştirakçısı olmuş hərbçilər də qatılıb. Onlar yürüşün ön cərgələrində irəliləyiblər. Hərbçilər hakimiyyətə təsir etmək gücünə malik olduqlarını deyiblər.

Az sonra xəbər gəlib ki, Ermənistan prezidenti Armen Sərkisyan Qarabağ separatçılarının lideri Bako Saakyan, bütün Ermənilərin Katolikosu II Qaregin, spiker Ara Babloyan və baş nazir Serj Sərkisyanın iştirakı ilə təcili iclas keçirib. Onlar aksiyanın tezliklə başa çatmalı olduğunu və dialoq çağırışı ediblər. Ancaq dialoq üçün müxalifətin dəyişməz şərti var: Sərkisyanın istefası.

*****

"Serj Sərkisyan törətdiyi cinayətlərə görə tam məsuliyyət daşıyacaq. O, Konstitusiya nizamını güclə dəyişdirdiyinə görə məsuliyyətə cəlb ediləcək. Xalq əvvəlki kimi dinc aksiyalarını davam etdirir. Sərkisyanın isə dövlət adından danışmaq haqqı yoxdur. O, dövlət üçün qeyri-qanunidir". Erməni hüquq müdafiəçisi Artur Sakunts deyib.

Günün ikinci yarısında isə artıq Serj Sərksiyanın istefa verdiyi məlum olub. Sərkisyan öz bəyanatında xalqa müraciət edib. "Paşinyan haqlı idi. Mən səhv etmişəm"-deyən sabiq baş nazir xalq etirazlarını nəzərə alıb postundan istefa verdiyini bəyan edib. "Mən sizin tələbinizi yerinə yetirirəm", - deyə o bildirib.

Ancaq bundan sonra onu nə gözləyir, bu, çox maraqlıdır. Birmənalı şəkildə demək olar ki, artıq Ermənistanda "Qarabağ klanı"nın hakimiyyətinə son qoyuldu.

*****

**Erməni̇şünas alim Qafar Çaxmaqlı** "Yeni Müsavat"a açıqlamasında indiki halda Azərbaycanın bu hadisələrə təsir etmək imkanında olmadığını vurğuladı: "Amma bütün ehtimalları analiz etmək faydalıdır. Hadisələrin gedişi zamanı bizim gözləmədiyimiz ortam yarana bilər və bunu dəyərləndirmək lazımdır. Dəfələrlə qeyd etdiyimiz kimi, ABŞ və Rusiya arasında Ermənistan uğrunda gizli və açıq mübarizələr olub. Budəfəki rəqabət bir az da açıq müstəviyə çıxıb. Amerika Ermənistanın bundan sonrakı siyasətini daha ciddi gözdən keçirəcək. Bu olayların Dağlıq Qarabağ məsələsinə ciddi təsiri olmayacağını düşünənlərdənəm".

**Politoloq Arzu Nağıyev** isə bildirdi ki, Ermənistanda baş verən hadisələr müəyyən edilmiş ssenari üzrə davam edir. Onun qənaətincə, S.Sərkisyanın istefasının arxasında Kremlin iradəsi dayanır: "Bu istefa Rusiyanın razılığı ilə mümkün ola bilərdi. Eyni zamanda aprel ayının 24-də qondarma soyqırımla bağlı keçiriləcək tədbirlərdə qarşıdurmalar yarana bilərdi ki, bu, həm də diaspora və ya lobbi səviyyəsində də təkrarlanardı. Bako Saakyanın da təcili İrəvana gəlməsi bir daha onu deməyə əsas verir ki, problem həddən artıq böyükdür. İqtidar tərəfindən təşkil olunan mitinqlər artıq xaotik bir məcraya yönəldi və Rusiya da dəstək vermədi. Məhz buna görə də nəticədə Sərkisyan istefa verdi. Təbii ki, hərbçilərdən gözlənilməyən addımlar da iqtidarı geri çəkilməyə vadar etdi".

Politoloqun sözlərinə görə, bu günlərdə baş verənlər mitinqlərin idarə olunduğunu göstərir: "Çünki müxalifətin elə bir gücü yoxdur ki, hansısa mitinqi maliyyələşdirsin. Lider kimi təqdim olunan Nikol Paşinyan da elə bir lider deyil ki, hamı onu dəstəkləsin. Nə qədər aksiyalara "məxməri inqilab" donu geydirməyə çalışsalar da, bu, belə deyil. Göründüyü kimi, antirusiya və antiqərb şüarları da yoxdur. ABŞ Dövlət Departamenti ancaq sakitliyə çağırır. Məlumdur ki, Paşinyan Levon Ter-Petrosyanın adamıdır və daim "Qarabağ klanı"na, o cümlədən Sərkisyana qarşı mübarizə aparıb".

Politoloq hesab edir ki, bu proseslərin Azərbaycana, Dağlıq Qarabağ məsələsinə təsiri olmayacaq: "Çünki istər müxalifət, istərsə də iqtidar bu məsələdə yekdildirlər və Dağlıq Qarabağ kartı əsas faktor kimi oynanılır və güc strukturları və digər mühüm orqanlar onların nəzarətindədir".

****

Ermənistanda yaşanan hadisələrin arxasında hansı "dirijor"un çubuğunun dayandığı da günün suallarındandır. Düzdür, uzun müddət belə xəbərlər yayılırdı ki, Rusiya S.Sərkisyanı vaxtaşırı yol verdiyi xəyanətkar hərəkətlərinə görə cəzalandıra bilər. Bu xəbərlər Sərkisyanın Almaniya kanslerinə Rusiyadan şikayət edəndə də, NATO ilə hərbi təlimlərə qatılmaq qərarı verəndə də, Avropa İttifaqı ilə saziş imzalayanda da, həmçinin Ermənistanda anti-Rusiya aksiyalarına meydan veriləndə də yayılmışdı.

Ancaq S.Sərkisyan baş nazir seçiləndən bir neçə saat sonra onu iki təbrik edən oldu ki, hər ikisi Rusiyadan: Putin və Medvedev. Bu mənada Sərkisyana qarşı aksiyaların arxasında Kremlin dayandığı az ehtimal olunur. Bu mənada nəzərlər Qərbə dikilsə də, hələlik nə ABŞ, nə Avropadan müxalifətə ciddi, yaxud açıq dəstək müşahidə olunmur.

Q.Çaxmaqlının fikrincə, Rusiya Sərkisyana dəstək verib: "Amma daxildə Rusiyanın bu dəstəyinə qarşı olan ciddi qüvvələr var. Onlar zaman-zaman Rusiyanın Ermənistanı öz nəzarətində saxlayan qüvvə kimi görürdülər və anti-Rusiya siyasəti sərgilənirdi. Bu da Amerika üçün cəlbedici idi. Amerika Ermənistanda iş aparıb. Və bu, artıq nəticəsini verib. Amma bunu da vurğulamalıyıq ki, ABŞ bu aksiyalarla Rusiyanı Ermənistanda küncə sıxışdıra bilməyib. Olayların gedişi bu rəqabəti daha da artırıb".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə bildirdi ki, Qərb bu hadisələrdə maraqlıdır: "Çünki Qərb Ermənistanın Rusiyadan qopmasını istəyir".

O, hesab edir ki, Ermənistan cəmiyyətinin qatil Serj Sərkisyandan qurtulması bölgədəki durumu dəyişir:

"Birincisi, Rusiya və Qərb Ermənistanda yeni lider uğrunda mübarizəyə başlayacaqlar. Ancaq yeni gələcək baş nazir Rusiya və Qərb arasında manevr etmək imkanında deyil. Ermənistan Rusiyanın təsir dairəsindədir. Kreml Sərkisyanı qorumaq istəmədi, ancaq bu, o demək deyil ki, Ermənistandan imtina etmək fikrindədir. Rusiya Sərkisyanın yerinə öz adamını oturtmağa çalışacaq, ya da yeni baş naziri "Rusiyasız hərəkət edə bilməzsən" reallığını qəbul etdirməyə çalışacaq. Buna baxmayaraq, Qərb də yeni baş nazir uğrunda mübarizəyə başlayacaq. İkincisi, rəsmi Bakı da ciddi götür-qoy etməlidir. 20 ildir Ermənistan Köçəryan-Sərkisyan girovluğunda idi və bu şəxslər işğalı həyata keçirənlərdir, heç zaman münaqişənin sülh yolu ilə həllinə yaşıl işıq yandırmayacaqdılar, necə ki, yandırmadılar. İndi Ermənistana yeni gələnlərə Bakıdan mesaj yollanmalıdır ki, əgər işğaldan vaz keçsələr və ədalətli sülhə razılaşsalar, bu, Ermənistanın da xeyrinədir".

Fakt isə ondan ibarətdir ki, erməni xalqı 20 ildən artıq müddətdə Dağlıq Qarabağ kartı ilə onu girov saxlayan, bütün regional və beynəlxalq layihələrdə iştirakdan məhrum edən, Ermənistanı işğalçı dövlət kimi dünyaya tanıtdıran Qarabağ klanından canını qurtardı.

*Yazı hazırlanarkən Ermənistanda kütləvi etiraz aksiyaları davam edirdi.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

# Qaradağı Dubaya çevirəcək nəhəng layihə...

**Qaradağın sosial-iqtisadi inkişafı - real vəziyyət və perspektivlər; Süleyman Mikayılov: "Rayonda böyük işlər gedir; beynəlxalq əhəmiyyətli dəniz limanı tikilir, orada Azad İqtisadi Zonanın yaradılması nəzərdə tutulub, başqa layihələr də var ki..."**

**Bu gün Azərbaycanın iqtisadi xəritəsində mühüm yer tutan Qaradağ rayonunda təkcə ölkə səviyyəli deyil, beynəlxalq əhəmiyyətə malik layihələr həyata keçirilir. Bakının ərazi baxımından ən böyük rayonu olan Qaradağ son illər sənayenin inkişafı, ölkə iqtisadiyyatına töhfələri baxımından da ön sıralarda yer alır. Strateji əhəmiyyətli coğrafi mövqedə yerləşməsi bu rayonun beynəlxalq nəqliyyat qovşağının mərkəzinə çevrilməsinə səbəb olub. Dəniz nəqliyyatı, dəmiryolu və avtomobil yolları ilə əhatələnən Qaradağ rayonu ölkənin iqtisadi inkişafı ilə bağlı qəbul olunan proqramlarda pilot rayon kimi önə çəkilir.**




### Qaradağ səfərində gördüklərimiz

Rayonun sosial-iqtisadi inkişafı ilə yerindəcə tanış olmaq üçün fotokamera və diktafonumuzu da götürüb Qaradağa yollandıq. Rayonun müxtəlif qəsəbələrindən keçdikcə yolboyu hər yerdə qızğın iş getdiyinin şahidi olduq. Bir yerdə yeni sənaye müəssisəsi tikilir, digər tərəfdə yol infrastrukturu yenilənir. Rayon ərazisində yolların əksəriyyətinin asfalt örtüyü yeni olduğundan nəqliyyatın rahat hərəkəti üçün şərait yaranıb. Əhalinin şəhərin mərkəzi ilə əlaqəsini təmin etmək üçün marşrut avtobusları da intensiv işləyir. Qaradağ rayonu mərkəzdən uzaq olsa da, insanların rahat yaşaması üçün lazım olan təhsil, səhiyyə mərkəzləri, ictimai-iaşə obyektləri, bank filialları fəaliyyət göstərir. Sakinlərin istirahəti üçün salınan yaşıllıqlar, parklar, uşaq əyləncə məkanları da öz yerində...

Söhbət etdiyimiz Qaradağ sakinləri də son illər rayonun simasının sürətlə dəyişdiyini bildirirlər. Onların sözlərinə görə, hələ sovet dövründən Qaradağ sənaye mərkəzi olsa da, insanların yaşam şəraiti baxımından bu qədər əlverişli deyildi. Hazırda isə, istər kommunal xidmətlər, istər yol infrastrukturu, istərsə də məşğulluq baxımından, Qaradağda xeyli işlər görülür. Rayonda fəaliyyətə başlayan sənaye müəssisələri əhalinin iş yerləri ilə təmin olunmasına şərait yaratmaqla yanaşı, digər rayonlardan insanların buraya köç etməsinə də səbəb olub.

Həmsöhbətimiz, yaşı 60-ı haqlayan Hüseyn Məmmədov uzun illərdir Qaradağda yaşadığını, son dövrlərdə gedən sürətli inkişaf prosesindən məmnun olduğunu dedi: "Rayonda aparılan işlər göz önündədir. Xeyli sənaye müəssisəsi fəaliyyət göstərir ki, bu da insanların iş yerləri ilə təmin olunması üçün yaxşı haldır. Yollar yenilənib, əvvəllər olduğu kimi kommunal problemlər yaşamırıq. Səhiyyə və təhsil müəssisələri normal səviyyəyə gətirilib. Başqa iri layihələr də həyata keçirilir ki, ölkəmizin inkişafı baxımından önəmlidir".

Məlumat üçün qeyd edək ki, Qaradağda iri sənaye müəssisələri, o cümlədən Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, Qaz Emalı Zavodu, Ə.Əmirov və N.Nərimanov adına neft-qaz çıxarma idarələri, "Holcim" və "Norm" sement zavodları, Metal Konstruksiyalar Zavodu, Bakı Gəmiqayırma Zavodu fəaliyyət göstərir. Bir rayonun payına düşən iri sənaye müəssisələrinin sayına görə də Qaradağ birincidir.

Bundan başqa, rayonda Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi də sürətlə davam edir. Hazırda müzakirəsi davam edən "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi qəbul olunub həyata keçirildikdə isə, Qaradağ rayonu xüsusi iqtisadi zonaya malik olması ilə dünyanın Dubay, Honkonq, Şanxay, Sinqapur kimi nəhəng nəqliyyat-logistika mərkəzinə çevriləcək.

**Qaradağ rayonunun icra başçısı Süleyman Mikayılov** da "Yeni Müsavat"a açıqlamasında ev sahibliyi etdiyi böyük iqtisadi layihələrlə bağlı məlumat verdi, gələcək planlardan söz açdı: "Hazırda Qaradağ rayonunda böyük işlər gedir. Beynəlxalq əhəmiyyətli dəniz limanı tikilir, orada Azad İqtisadi Zonanın yaradılması nəzərdə tutulub. Başqa layihələr də var ki, onlara investisiyaların cəlb olunması nəzərdə tutulur. Artıq bəzi sahələrə yatırımlar olub, iş gedir. Beynəlxalq əhəmiyyətli layihələrin məhz Qaradağda icra edilməsinin əsas səbəbi odur ki, bura sənaye rayonudur, böyük istehsal müəssisələri fəaliyyət göstərir. Liman tikildikdən sonra burada istehsal olunan məhsulların daşınması da daha rahat olacaq. Bundan başqa, Qaradağ neft-qaz sənayesinə malik bir rayon olduğu üçün də strateji baxımdan əhəmiyyətli hesab olunur".

İcra başçısı onu da vurğuladı ki, azad ticarət zonasının yaradılmasından sonra Qaradağ Dubay, Şanxay kimi dünyanın logistik mərkəzinə çevriləcək: "Beynəlxalq Dəniz Limanı və Bakı-Tiflis-Qars dəmiryolu Qaradağ rayonundan keçməklə yüklərin daşınması baxımından daha əlverişli olacaq və Azad İqtisadi Zonanın yaradılmasında mühüm rol oynayacaq. Limanın tikintisi tam başa çatdıqdan sonra isə illik yükdaşımalar 25 milyon tona, konteyner daşınması isə 1 milyona çatdırılacaq. Bu özü də onu göstərir ki, Qaradağ önəmli bir rayondur. Rayonun inkişafı , infrastrukturun yenidən qurulması cənab prezidentin nəzarətindədir. Biz də çalışırıq ki, üzərimizə düşən vəzifələri yerinə yetirək".

### "Qaradağda hava limanı da salına bilər"

**Qaradağ rayonunun deputatı Aydın Hüseynov** da "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, ümumilikdə dünyanın iqtisadi xəritəsini dəyişəcək beynəlxalq layihələr Qaradağda həyata keçirilir: "Bunlardan ən başlıcası Səngəçal terminalıdır ki, Bakı-Tiflis-Ceyhan neft kəmərinin başlanğıcı oradandır. Bundan başqa, cənab prezidentin müəllifi olduğu Bakı-Tiflis-Qars layihəsi də Qaradağ rayonunda həyata keçirildi. Yeni Bakı Dəniz Ticarət Limanı, Qaradağ Gəmiqayırma Zavodu, Qaradağ Sənaye Parkı və ən nəhayət, haqqında qanun layihəsinin də hazırlandığı Ələt Azad İqtisadi Zonası kimi böyük layihələr Qaradağ rayonunda fəaliyyət başlayıb. Biz ölkə iqtisadiyyatından, o cümlədən Qaradağ rayonundan danışırıqsa, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun adını çəkməyə bilmərik. Bu zavodun tikintisi ulu öndər Heydər Əliyevin təkidi ilə Qaradağ rayonunun Səhil qəsəbəsində həyata keçirildi və "Əsrin müqaviləsi"nin bağlanmasında ən başlıca baza rolunu oynayan böyük bir zavod oldu. Qaradağ rayonu ərazi baxımından Bakının 51 faizini təşkil edir, böyük bir rayondur. Eyni zamanda burada fəaliyyət göstərən böyük sənaye müəssisələri təkcə Azərbaycanın və regionun deyil, bütün Avrasiya məkanının mühüm layihələri içərisində yer alır. Ölkə və region əhəmiyyətli böyük iqtisadi layihələrin məhz Qaradağda həyata keçirilməsinin əsas səbəbi isə bu rayonun strateji baxımdan əhəmiyyətli nöqtədə yerləşməsidir. Bu rayon nəqliyyat qovşağının mərkəzidir. Bütün istiqamətlərdə respublika əhəmiyyətli magistral yollar Qaradağdan, xüsusilə də Ələt ərazisindən keçir. Eyni zamanda rayonumuz Xəzər dənizinin sahillərini də əhatə edir ki, bu da həm gəmiçilik üçün, həm də Mərkəzi Asiya respublikaları ilə əlaqə saxlamaq baxımından çox əlverişlidir. Qaradağ rayonu həm dəniz yolu, həm avtomobil yolları, həm də dəmiryollarının kəsişməsində yerləşir. Rayon bu mənada böyük strateji əhəmiyyətə malikdir. Gələcəkdə isə Qaradağda hava limanının salınacağı da gözlənilir. Bununla da Azad İqtisadi Zonanın formalaşması üçün ən mühüm amillər burada formalaşmış olacaq".

### Bakının işsizlik olmayan rayonu...

Deputatın sözlərinə görə, rayonun inkişafında və böyük bir sənaye şəhərinə çevrilməsində prezident İlham Əliyevin böyük rolu var: "O, Qaradağ rayonundan deputat seçildiyi dövrdən etibarən rayonda böyük quruculuq işləri başlayıb. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qaradağ rayonunun Lökbatan qəsəbəsində 1000 nəfər ailəni əhatə edən yaşayış kompleksi inşa olunur. Qaradağda bu qədər beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin həyata keçirilməsi, sənaye müəssisələrinin açılması rayon əhalisinin sosial rifahı baxımından da çox önəmlidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşlarının maraqlarının qorunması, sosial rifahının yüksəldilməsidir. Bu baxımdan açılan sənaye müəssisələrində vətəndaşların işlə təmin olunması əsas prioritetdir. Bu mənada Qaradağ rayonunda işsizlik, demək olar ki, yoxdur, əhalinin gəlirləri artır. Eyni zamanda Bakı şəhərinin digər rayonlarından da insanlar Qaradağa köçüb, burada yaşamağa çalışırlar. Çünki rayonda həm infrastruktur formalaşıb, həm də iş yerləri var".

**Sabiq maliyyə naziri Fikrət Yusifov** da diqqətə çatdırdı ki, Qaradağı başqa bölgələrdən fərqləndirən cəhətlərdən biri onun ərazisinin kifayət qədər böyük olması və bu ərazidə iri sənaye müəssisələrinin fəaliyyət göstərməsidir: "Azərbaycan hökumətinin təməli 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş neft-qaz strategiyası son illər ərzində Bakının bu rayonunun həyatında əsaslı dəyişikliklərə gətirib çıxartdı. Bu gün, BTC neft boru kəməri başda olmaqla, Azərbaycanın neft və qazını dünyaya daşıyan bütün digər boru nəqliyyatının yolu bu rayonun ərazisindən başlayır. Qaradağ artıq təkcə Bakının deyil, ümumilikdə respublikanın ən böyük sənaye mərkəzlərindən birinə çevrilib. Bu gün buradan Azərbaycanın neft-qaz kəmərləri ilə yanaşı, yeni nəqliyyat arteriyası da dünyaya açılır. Ələt qəsəbəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi Azərbaycanı Avropa-Asiya, Şimal-Cənub nəqliyyat arteriyalarında başlıca mərkəzə çevirəcək. Yeni limanın birinci mərhələdə yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdir. İkinci mərhələdə bu göstərici 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələndə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaq. Xəzər dənizi hövzəsində ən böyük logistika mərkəz olacaq Ələt limanı vasitəsilə gələcəkdə yüz milyonlarla ton yükün Azərbaycan üzərindən daşınması baş verəcək".

F. Yusifovun fikrincə, bu limanın ərazisində yaradılacaq Azad İqtisadi Zona isə Qaradağın iqtisadiyyatına xüsusi bir töhfə olacaq: "Bir sözlə, yaxın gələcəkdə Qaradağ rayonu Qərblə Şərq, Şimalla Cənub arasında beynəlxalq tranzit yükdaşımalar sahəsində ən böyük logistika mərkəzinə çevriləcəkdir. Rayonun iqtisadiyyatı da sürətlə inkişaf etməkdədir. Belə ki, 2017-ci ildə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çox sənaye məhsulu istehsal edilib və xidmətlər göstərilib. Qaradağ rayonunun rəhbərliyi onun sürətli iqtisadi inkişafını təmin etmək məqsədilə xarici investisiyaların cəlb edilməsi sahəsində səmərəli fəaliyyət göstərir. Belə ki, ötən il Qaradağ rayonu ilə Çin, Koreya və Latviyanın bir sıra vilayətləri arasında xarici sərmayələrin rayonun iqtisadiyyatına cəlb edilməsi istiqamətində müvafiq sənədlər imzalanıb".

Sonda onu da qeyd edək ki, Qaradağ rayonunun bir sənaye və nəqliyyat mərkəzi kimi iqtisadi perspektivi həm də ölkəmizin dünya ticarətindəki yerini müəyyən edən ən önəmli amilə çevriləcək. Bu səbəbdən hazırda görülən işləri bu yolun başlanğıcı saymaq olar.






*Yazı Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir.*

**❑ Nərgiz LİFTİYEVA,**
**fotolar müəllifindir**



# Səudiyyə Ərəbistanında çevriliş xofu

## ər-Riyaddakı proseslər bütövlükdə bölgəni çalxalaya bilər; kral sarayındakı atışmaya dünya mediasındakı diqqət səbəbsiz deyil

**Aprelin 21-də gecə saatlarında Səudiyyə Ərəbistanında çevriliş xəbərləri yayıldı. Əvvəlcə sosial media, ardınca isə nüfuzlu agentliklər ər-Riyadda kral saraylarından birinin ətrafında atışma olduğu xəbərlərini yaydı. Xəbərlərdə quru qoşunları komandanı Alukas Nepilsin çevriliş etdiyi və onun rəhbərlik etdiyi hərbçilərin saraya daxil olmaq istədiyi zaman atışma olduğu bildirilirdi.**

Bu versiyanı təsdiqləyən sarayın ətrafından çəkilən videolarda isə təhlükəsizlik qüvvələrinə məxsus avtomobillərin sirena siqnalları və davamlı atəş səsləri eşidilirdi. O da bildirilirdi ki, kral Salman saraydan çıxarılaraq ər-Riyad ətrafındakı hərbi bazalardan birinə aparılıb.

Ancaq bir neçə saatdan sonra təkzib xəbərləri gəlməyə başladı. “Wall Street Journal”ın Dubaydakı müxbiri Marqarita Stansati hadisənin kral sarayı yaxınlığında dron (insansız uçan aparat-K.R.) görünməsi və onun vurulub salınması olduğunu yazıb. Ardınca oxşar açıqlamanı Səudiyyə Ərəbistanı rəsmisi “Reuters” Agentliyinə bildirib. Açıqlamada qeyd olunur ki, təhlükəsizlik qüvvələri ər-Riyadın Huzamə bölgəsində kral saraylarından birinin yaxınlığında dron görüb və atəş açılaraq yerə salınıb. Bazar günü isə Krallığın ölkə ərazisində dron uçuşunu qadağan etdiyi, yalnız rəsmi icazə ilə mümkün ola biləcəyi haqda fərman yayıldı.

Lakin hadisələrin bir icazəsiz dron uçuşundan ibarət olması inandırıcı gəlmədi. Bir sıra media orqanları, analitiklər çevriliş və ya saray daxilində sui-qəsd hadisəsinin ola biləcəyi haqda fikirlər səsləndirib. İlk növbədə hadisənin özü inandırıcı gəlməyib. Yəni Səudiyyə mühafizə qüvvələrinin bir drona görə saat yarım, hətta bəzi mənbələrə görə daha çox atışması mümkün deyildi. Üstəlik, hadisədən dərhal sonra internet filtirlənib və ən əsası krala məxsus GLF4 hospital təyyarəsi havaya qalxaraq cənuba doğru uçub. Ancaq təyyarənin kimi apardığı, hara getdiyi məlum olmayıb.

Bu səbəbdən də ehtimal olunur ki, sarayda sui-qəsd baş verib və “mühüm” şəxslərdən biri yaralıdır. Görünür ki, bu məsələni ört-basdır etməyə çalışırlar. Digər tərəfdən, bu ilin əvvəlində ordunun bir çox komandanları istefaya göndərilib. O cümlədən ötən il krallığa ən yaxın namizədlərdən biri olan, bundan öncəki kral Abdullah bin Əbdüləzizin oğlu Mutaib bin Abdullah vəzifəsindən uzaqlaşdırılıb. Yəni ordu içərisində narazıların olması mümkündür.

Təbii ki, dünyanın diqqətini cəlb edən Səudiyyə Ərəbistanı, necə deyərlər, sıradan ölkə deyil. Ərazisinə görə dünyanın 13-cü böyük ölkəsi olan Səudiyyə Ərəbistanı kəşf olunmuş neft ehtiyatlarına görə dünya ikincisidir. Eyni zamanda OPEC daxilində ən böyük neft ixracatçısıdır. Yəni bu ölkədə kiçik bir çaxnaşma dünya neft bazarında fırtınaya səbəb ola bilər.

Digər tərəfdən, krallıq onsuz da həddən artıq həssas və narahat bölgənin əsas hərbi-siyasi güc mərkəzlərindən biridir. Son illərdə bu ölkədə islahat sayıla biləcək ciddi addımlar atılır, bir sıra sərt şəriət qadağaları dəyişdirilir. Ötən il bir neçə dəfə saray daxilində silahlı toqquşma və ciddi gərginliklər baş verib. 33 yaşlı vəliəhd-şahzadə Məhəmməd bin Salman ölkədə bir sıra radikal islahatlara əl atıb. Qadınlara sürücülük hüququ, idman yarışlarını izləmək haqqı verilib, kinoteatr açılıb. Şahzadənin bu addımlarının radikal dini dairələrə və saraydakı rəqiblərinin sərt təpkisi ilə qarşılanacağını proqnozlaşdıranlar var. Ötən ilin noyabrında isə aralarında şahzadələrin və nazirlərin də olduğu 200-dən çox nüfuzlu şəxs həbs olunub. Bir şahzadə isə qaçmaq istəyərkən öldürülüb. Hətta vəliəhd-şahzadə Məhəmməd bin Salman ABŞ mediasına müsahibəsində sui-qəsdə məruz qalması ehtimalına işarə etmiş, buna görə islahatları sürətləndirdiyini, ölmədən dəyişiklikləri görmək istədiyini demişdi.

Yaxın Şərqin aparıcı dövlətlərindən biri olan Səudiyyə Ərəbistanında baş verə biləcək çevriliş və ya sui-qəsd bütövlükdə bölgənin taleyini dəyişə bilər. Xatırladaq ki, hazırda Səudiyyə Ərəbistanı Yəmənə hərbi müdaxiləni davam etdirir. 2015-ci ilin 26 martından başlayan hərbi müdaxilənin əsas səbəbi Yəməndə hakimiyyəti ələ keçirmiş İrana yaxın husiləri, cəzalandırmaqdır. Bundan başqa, ötən ilin iyun ayından başlayaraq Səudiyyə Ərəbistanı və Qətər arasında “soyuq müharibə” davam edir. Krallıq Qətəri terrorizmi dəstəkləməkdə ittiham edir, ada dövlətini blokadaya alıb. Bundan başqa, Səudiyyə Ərəbistanı Suriyada Bəşər Əsədin devrilməsi kampaniyasını dəstəkləyir. Eləcə də Livanda Hizbullaha qarşı olan siyasi qüvvələri dəstəkləyir. O cümlədən İraqda bir sıra qüvvələrlə yaxından əməkdaşlıq edir.

Amma Səudiyyə Ərəbistanının ən böyük rəqibi və düşməni İrandır. Səudiyyə şahzadəsi özü də bu yaxınlarda bəyan edib ki, qarşıdakı 15 il ərzində İranla müharibə edə bilərlər. Çünki hazırda regionda iki dövlət arasında ciddi ideoloji, siyasi və hərbi rəqabət mövcuddur. Silahlanmaya böyük miqdarda vəsait xərcləyən ər-Riyad ABŞ-la olan dostluq səbəbi ilə Amerika ordusunun istifadəsində olan ən müasir silahları əldə edir. Eyni zamanda regionda bir çox siyasi, hərbi və dini qruplara maddi dəstək verən ər-Riyad bölgənin aktiv oyunçusu hesab olunur. Bu ölkədə baş verə biləcək hər hansı siyasi kataklizm və ya çevriliş bütövlükdə regiona ciddi təsir edə bilər.

Bir sıra analitiklərə görə, son illərdə Səudiyyə Ərəbistanının əvvəlki illərlə müqayisədə həddən artıq aktivlik nümayiş etdirməsi, regionda bütün proseslərə müdaxilə etməsi son nəticədə ərəb dövlətinin özü üçün ciddi təhlükəyə çevrilə bilər. Cəlb olunduğu həddən artıq ağır silahlanma yarışı, ağır maddi məsrəflər, eləcə də regiondakı bütün siyasi, hərbi münaqişələrə qatılması krallığın çöküşünə və içəridən dağılmasına səbəb ola bilər. Yəmən müharibəsinin Ərəbistan ərazilərini təhdid etməsi, Qətərlə münaqişənin içəridə doğurduğu narazılıq (hələlik aşkar edilməsə belə - K.R.) daxildəki qəbilələrin narazılığı kimi faktorlar var. Bütün bunlar Səudiyyə Ərəbistanı üçün risk faktorlarıdır və hazırda baş verən proseslərin hər an bu riski doğurması mümkündür. Məhz bu səbəbdən də ölkədə ciddi hərbi rejim fəaliyyət göstərir, bütün dünya isə bu ölkədə baş verənlərə həssaslıqla yanaşır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

# Qonşularımız milli pulları ilə alverə keçsə...

## Ekspert: “Bu, Azərbaycana o halda təsir edəcək ki...”

**İran və Türkiyə ötən ilin oktyabrında imzaladıqları müqavilənin icrasına başlayıb. Söhbət ikitərəfli ticarətin milli valyutalara - rial və lirəyə keçirilməsi haqda sazişdən gedir. Tərəflər hesab edirlər ki, saziş ikitərəfli ticarətə əlverişli şərait yaradır, İran-Türkiyə iqtisadi əlaqələrinin genişlənməsi üçün zəmin hazırlayır. Hesab olunur ki, İran rialı və Türkiyə lirəsi bundan sonra sərbəst konvertasiya rejimində istifadə olunacaq, sərhədin hər iki tərəfindəki tacirlərə valyutaları kommerisya əməliyyatları üçün istifadə etməyə imkan verəcək. Bundan əlavə, prosesin valyuta konversiyası ilə bağlı xərcləri azaltmağa da imkan verəcəyi deyilir.**







Onu da qeyd edək ki, qarşılıqlı ticarətdə milli valyutalarla hesablaşmaya keçid İran, Türkiyə və Rusiya tərəfindən ABŞ valyutasından imtina məqsədi daşıyır. Artıq bir neçə ildir ki, hər üç ölkədən Azərbaycana da ticarətin milli valyutalarla aparılması ilə bağlı təkliflər səslənməkdədir. Belə təkliflər hətta Türkiyə və İranın ən yüksək vəzifəli şəxsləri tərəfindən açıq mətnlə ifadə olunub.

Son həftələrdə Rusiya, Türkiyə və İranın milli valyutalarının dəyərsizləşməsi prosesinin getməsi dollardan imtina məsələsini bir daha gündəmə gətirib. Hətta İran xarici ticarətində dollardan avroya keçdiyini bəyan edib.

*İki böyük qonşusu və ticarət tərəfdaşının milli valyutalarla əməliyyatlara keçidi Azərbaycan üçün hansı nəticələri verə bilər? İranla Türkiyənin rial və lirə üzərindən alverə başlaması nə qədər uğurlu olacaq?*

Sualları cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənov** deyir ki, ümumi yanaşmaya əsaslansaq, Azərbaycan üçün bunun ciddi riski yoxdur, çünki bizim hər iki ölkə ilə mənfi ticarət saldomuz var: “Bu, Azərbaycan üçün müəyyən qədər manevr imkanları yaradır. O halda ciddi risklər yaranar ki, bu ölkələrə ixrac idxaldan çox olar. Bu isə hər iki ölkənin valyutasının Azərbaycanda izafi artıqlığı və məzənnə dəyişikliyindən itkilərin meydana çıxması təhlükəsi yaradar. Amma bu, qeyd etdiyim kimi, ümumi yanaşmadır. Reallıqda isə vəziyyət xeyli fərqlidir. Azərbaycan da daxil olmaqla - Rusiya, Türkiyə və İranda biznesin bu prosesə qoşulub-qoşulmayacağı ciddi sual altındadır. Düşünürəm ki, mövcud şərtlər daxilində Azərbaycanda da, digər üç ölkədə də biznes bu prosesə qoşulmayacaq. Çünki Rusiya sahibkarı İran rialına, İran sahibkarı Türkiyə lirəsinə, Türkiyə sahibkarı rus rubluna, Azərbaycan sahibkarı isə bu üç ölkənin heç birinin milli valyutasına inanmır”.

Ekspertə görə, belə şərtlər daxilində biznesi prosesə cəlb etmək üçün dövlətin hər hansısa formada sahibkarlar üzərində təzyiq formalaşdırması lazım gəlir: “Buna isə heç bir ölkədə gedilməyəcək. Çünki belə bir təzyiqin formalaşdırılması nəticəsində sahibkarların bu istiqamətlərdə mal ixrac etməyə marağı olmayacaq. Bu isə ölkənin ixrac potensialının zəifləməsinə gətirib çıxaracaq. Bu baxımdan yanaşdıqda, düşünmürəm ki, hökumətlərin ortaya qoyduğu bu mövqe işlək bir mexanizmə malik olsun. Ola bilər ki, yalnız bu prinsip dövlətlərarası alqı-satqılara şamil olunsun. Yəni Azərbaycan İrandan qaz alırsa, onun pulunu milli valyuta ilə ödəsin, yaxud Türkiyəyə qaz satırsa, dəyərini lirə ilə alsın. Özəl sektorun bu prosesə qoşulacağı real deyil. Ticarət bir neçə günə, bir neçə həftəyə, hətta bir neçə aya yekunlaşan proses deyil. Ticari münasibətlər uzunmüddətli, çoxillik müqavilələrlə tənzimlənir. Məhsulun gedişi ilə pulun gəlişi arasında aylarla vaxt keçir. Son vaxtlar hər 3 ölkənin milli valyutası kəskin dəyərsizləşməyə məruz qalıb. Bu şəraitdə sahibkar necə inansın ki, bu gün Rusiyaya, İrana, Türkiyəyə onların valyutası ilə satdığı malın pulunu geri alanda həmin pul öz dəyərini itirməyəcək? Biznes bunu proqnozlaşdıra bilmədiyi halda, heç vaxt riskə getməz. Ona görə də düşünürəm ki, bu təşəbbüs ölkələrin düşdüyü çətin vəziyyətdə daxili ictimai rəyə hesablanmış bir yanaşmadır. Amma real xarici ticarətdə ciddi effekt verməyəcək, milli valyutalarla dövriyyənin həcmi o qədər də böyük olmayacaq”.

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**



## Bakıda müxtəlif cinayətlər törədən 32 qrup ifşa olunub

**Aprelin 23-də Bakı Şəhər Baş Polis İdarəsində 2018-ci ilin I rübünün nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. İdarədən APA-ya verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan Bakı Şəhər BPİ-nin rəisi, polis general-mayoru Mirqafar Seyidov bildirib ki, 2018-ci ilin ilk 3 ayı da Azərbaycan üçün əlamətdar olub, prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycanın uğurlu inkişafı davam edib, sosial-iqtisadi problemlər öz həllini tapıb.**

Daxili işlər Nazirliyinin üzərinə qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyini bildirən M. Seyidov nazir Ramil Usubovun rəhbərliyi ilə əldə edilən bu nailiyyətlərdə DİN-in əsas strukturlarından biri olan Bakı Şəhər BPİ-nin də xüsusi xidmətləri olduğunu diqqətə çatdırıb.

Daha sonra 2018-ci ilin I rübündə paytaxtda cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun qorunması, ictimai təhlükəsizliyin təmini, əməliyyat-xidmət fəaliyyətinin digər sahələrində görülən işlər və qarşıda duran vəzifələr barədə geniş məruzə müşavirə iştirakçılarına təqdim edilib.

Bildirilib ki, hesabat dövründə 16 soyğunçuluq və quldurluq cinayəti törətmiş 28 nəfərdən ibarət 16 qrup, eləcə də 41 mənzil oğurluğu törətmiş 36 nəfərdən ibarət 16 cinayətkar qrup ifşa olunub.

Narkotiklərlə bağlı aşkar edilmiş 234 fakt (2017-ci ilin müvafiq dövründə 294) üzrə qanunsuz dövriyyədən 172 kiloqramdan çox (+11 kq 603 qr) narkotik vasitə çıxarılıb.

Hesabat dövründə paytaxtın polis orqanlarının istintaq qurumlarının icraatında olan cinayət işlərinin sayı 6,3% azalaraq 4.641 (-315) iş olub. İstintaqı tamamlanmış 1.192 (+121) cinayət işindən 68,4%-i (-23, 815-i) baxılması üçün məhkəmələrə göndərilib, 31,6%-nin (+144, 377) icraatına xitam verilib. İstintaqı tamamlanmış cinayət işləri üzrə vətəndaşlara vurulmuş maddi ziyanın 90,3%-i (+47,3%) ödətdirilib.

Qarşıda duran mühüm vəzifələrdən olan vətəndaşların ərizə və şikayətlərinə baxılması, onların qəbulu işi ciddi nəzarətdə saxlanılıb. Baş Polis İdarəsinə 12.202 ərizə və müraciət daxil olub, 445 vətəndaş qəbul edilib. Müraciətlərin 915-i Nazirliyin və Baş İdarənin rəhbərliyi tərəfindən nəzarətə götürülüb.

Paytaxtda ictimai asayişin mühafizəsi də ciddi nəzarətdə saxlanılıb, beynəlxalq və respublika əhəmiyyətli çoxsaylı kütləvi tədbirlərdə asayişin mühafizəsi daha da gücləndirilərək mümkün təxribat hallarının, o cümlədən qanunsuz aksiyaların qarşısının vaxtında alınması üçün bütün zəruri tədbirlər görülüb.

Bakı Polis Qarnizonunun bir sıra xidmət və ərazi polis orqanlarının rəisləri məruzə ətrafında çıxış etmiş, mövcud nöqsanları qısa müddətdə aradan qaldıracaqlarına söz veriblər.

Bakı Şəhər BPİ-nin rəisi Mirqafar Seyidov əməliyyat müşavirəsinə yekun vuraraq, Bakı polisinin 2018-ci ilin I rübündəki xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib, nöqsan və çatışmazlıqları qeyd edib, onların aradan qaldırılması istiqamətində tapşırıq və tövsiyələrini verib.

## Gücləndirilmiş "Nar" şəbəkəsi Bakı Formula-1 Qran Prisinə hazırdır

nar
Gəlin birlikdə böyüyək

**"Nar" önümüzdəki günlərdə Bakıda keçiriləcək Formula-1 Qran Pri yarışları ərəfəsində şəbəkəsinin optimallaşdırılması istiqamətində müxtəlif işlər görüb. Mobil operator paytaxta gələcək sürət həvəskarlarına ən yüksək səviyyədə mobil rabitə xidmətləri göstərmək üçün müvafiq işləri başa çatdırıb. Belə ki, ərazinin şəbəkə testləri tamamlanıb və şəbəkənin keyfiyyət ölçüləri müəyyənləşdirilib. Bakı şəhərinin mərkəzində şəbəkə tutumu maksimum optimallaşdırılıb, 4G (LTE-A) şəbəkə tutumu və əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə 20-dən artıq yeni baza stansiyası quraşdırılıb. Yarışların keçiriləcəyi ərazilərdə şəbəkə tutumunun mükəmməlləşdirilməsi üçün yeni 6 mobil baza stansiyası işə salınıb.**

**Yarışların keçiriləcəyi ərazilərdə 24/7 rejimində çalışacaq "Nar" əməkdaşları şəbəkəyə nəzarət edəcək, şəbəkə istifadəçilərinə dəstək olacaqlar. "Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

# Sabiq MTN generallarına hökm oxundu, rütbələri alındı

## "MTN çetesi"nin daha bir neçə üzvünə ağır cəzalar kəsildi; DTX-ya 1 milyon ödəniləcək



Natəvan Mürvətova



Sübahir Qurbanov

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb.**

Cinayət işinə Bakı Hərbi Məhkəməsinin sədri hakim Həbib Həsənovun sədrlik etdiyi kollegiyada Sabunçu Rayon Məhkəməsinin inzibati binasında baxılıb.

Musavat.com xəbər verir ki, aprelin 23-də keçirilən məhkəmə iclasında sabiq MTN əməkdaşlarının rütbələri və mülki iddialarla bağlı da qərar çıxarılıb.

Hökmə əsasən, təqsirləndirilən şəxslərin hər birinin hərbi rütbələrindən azad olunması istənilib.

Bunun üçün generallarla bağlı prezidentə, digər rütbəli şəxslərlə bağlı müvafiq qurumlara təqdimat veriləcək.

Məhkəmə Dövlət Təhlükəsizlik Xidmətinin 1 milyon manatlıq mülki iddiasını da təmin edib.

Hökmə əsasən, general Sübahir Qurbanov 14 il, Teymur Quliyev 12 il, Füzuli Əliyev 14 il, Natiq Əliyev 10 il 6 ay, Zaur Məmmədov 10 il 6 ay, Anar Şirəliyev 3 il, Eşqin Əliyev isə 3 il müddətinə azadlıqdan məhrum ediliblər.

Fərhad Atayev və Elşad Əzizov barəsində 3 il sınaq müddəti olmaqla 70-ci (şərti) maddə tətbiq edilib. Onlar məhkəmə zalından azadlığa buraxılıblar. Ev dustaqlığında olan general Natəvan Mürvətova barəsində də şərti cəza təyin edilib, 5 il sınaq müddəti olmaqla şərti cəza çıxarılıb.

İttihama görə, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizov 2004-2015-ci illər ərzində mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Dəstə üzvləri sahibkarlara psixi və fiziki zorakılıq göstərməkdə, sərbəst buraxılmaları müqabilində həbsə alma və barələrində rüsvayedici məlumatlar yayma hədəsi ilə külli miqdarda pul tələb etmədə ittiham ediliblər.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

## Yol polisindən sürücülərə texniki baxışla bağlı xəbərdarlıq



**Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi nəqliyyat vasitələrinə texniki baxışın keçirilməsi ilə bağlı sürücülərə və avtomobil sahiblərinə müraciət edib.**

İdarədən APA-ya verilən məlumata görə, Baş Dövlət Yol Polisi İdarəsi sürücülərinin və sahiblərinin diqqətinə çatdırır ki, nəqliyyat vasitələrinin texniki baxışı davam edir. "VAZ", "QAZ", "Moskviç", "ZAZ", "UAZ" markalı və digər MDB istehsalı olan minik avtomobilləri üzrə baxış müddəti yanvar ayının 1-dən may ayının 1-dək müəyyən edilib.

Aprelin son günlərində yarana biləcək nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə Baş DYP İdarəsinin Bakı şəhəri, Sabunçu rayonu Maştağa qəsəbəsində yerləşən müasir avadanlıq və ölçü cihazları ilə təchiz edilmiş texniki müayinə mərkəzi və respublikanın digər rayonlarındakı regional qeydiyyat-imtahan və texniki baxış şöbələri həftənin bütün günləri fəaliyyət göstərir.

Nəqliyyat vasitələrini texniki baxışa təqdim edəcək sürücü və ya sahiblərdən xahiş olunur ki, baxış zamanı əlavə vaxt itkisinə yol verilməməsi üçün "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanuna edilmiş dəyişikliklərə əsasən, barələrində qanuni qüvvəyə minmiş yol hərəkəti və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xəta haqqında iş üzrə tətbiq edilən cərimələrin ödənilməsini təmin etdikdən sonra müraciət etsinlər. Həmçinin nəqliyyat vasitələrinin texniki baxışa saz vəziyyətdə təqdim olunması vacibdir.

Tərtib olunmuş inzibati protokol əsasında qəbul edilmiş qərar üzrə ödənilməmiş cərimə məbləği və ya qüvvədə olan cərimə balı barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin www.mia.gov.az və Baş DYP İdarəsinin www.dyp.gov.az rəsmi internet saytlarının "Cərimələr və cərimə balları barədə məlumatlar" bölümündə sürücülük vəsiqəsinin rekvizitlərini daxil etməklə məlumatlar əldə edilə, habelə e-xidmet.mia.gov.az və Baş DYP İdarəsinin www.dyp.gov.az rəsmi internet saytlarının "Cərimələr və cərimə balları barədə məlumatlar" bölümündə sürücülük vəsiqəsinin rekvizitlərini daxil etməklə məlumatlar əldə edilə, habelə e-xidmet.mia.gov.az internet portalında qeydiyyatdan keçməklə qərarlı və qərarsız protokollar üzrə plastik kart vasitəsilə ödəniş aparıla bilər.

Məlumat üçün bildirək ki, İnzibati Xətalar Məcəlləsinin 339.1. maddəsinin tələbinə müvafiq olaraq, nəqliyyat vasitələrinin sahibləri və ya sürücüləri tərəfindən müəyyən edilmiş qaydada və müddətdə (texniki baxışdan keçmə müddəti talonunun üzərində iri rəqəmlərlə qeyd olunur) nəqliyyat vasitəsini dövlət qeydiyyatından və ya texniki baxışdan keçirmədən idarə etməyə görə fiziki şəxslərin 50 manat miqdarında, vəzifəli şəxslərin 100 manat miqdarında, hüquqi şəxslərin isə 300 manat miqdarında cərimə edilməsi nəzərdə tutulur.

YENİ MÜSAVAT
N 88 (6977) 24 aprel 2018

# Yeni agentlik turizmə nə verəcək...

## Mütəxəssislərdən dəyərləndirmə; **iqtisadçı:** "Turizm daha çox fərdi və ailə biznesi kimi inkişaf etməlidir"

**Bu günlərdə Prezident İlham Əliyev "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalayıb.**

Sərəncamla Mədəniyyət və Turizm Nazirliyinin əsasında Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradılıb.

Yeni agentliyə rəhbər təyin olunmasa da, bu qurumun yaradılmasının turizmin inkişafına mümkün təsirləri hamını maraqlandırır. **İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** turizm sektoruna nəzarət orqanının nazirlikdən agentlik statusuna endirilməsini müsbət hal hesab edir: "Turizmin dövlət tənzimlənməsi o ölkələrdə nazirlik səviyyəsində quruma həvalə olunur ki, orada turizm ölkənin başlıca sektoru, əsas gəlir mənbəyi olsun. Hətta Gürcüstan kimi turizmin yüksək inkişaf tempinə malik, bu sahədə ciddi uğurlar əldə etmiş ölkədə dövlət qurumu agentlik səviyyəsindədir. Orada turizmdə əsas rolu bu sahə ilə məşğul olan şirkətlərin nümayəndələrindən ibarət Turizm Assosiasiyası oynayır: vəziyyəti analiz edir, problemləri müəyyənləşdirir, daha sonra onların həlli ilə bağlı hökumət və digər tərəflərlə müzakirələr aparır. Gürcüstanda turizmlə bağlı dövlət qərarları bu assosiasiya ilə müzakirələrdən sonra verilir".

İqtisadçı-alimin fikrincə,



Dövlət Turizm Agentliyi Azərbaycanda turizmlə bağlı yeganə dövlət qurumu olmalıdır: "Hazırda Azərbaycanda Turizm Şurası da var, sahə ilə məşğul olan digər qurumlar da. Hesab edirəm ki, dövlət turizmdən əlini çəkərək yalnız tənzimləyici rolunu saxlamalı, daha çox turizmin inkişafı qarşısındakı problemlərin aradan qaldırılması üçün dəstək verməlidir. Ümumiyyətlə, turizm daha çox fərdi və ailə biznesi kimi inkişaf etməlidir. Bu sektor liberallaşmalıdır. Əks təqdirdə turizmin inkişafına nail olmaq çətin məsələdir. Yeni yaradılan agentlik turizm fəaliyyətlərinə müdaxiləni azaldıb dəstəyi çoxaltmaq prinsipi ilə işləməlidir. Yalnız bu halda turizmin inkişafına nail ola bilərik".

**Turizm sahəsi üzrə mütəxəssis, Azərbaycan Turizm Assosiasiyası İdarə Heyəti sədrinin müşaviri Müzəffər Ağakərimovun** sözlərinə görə, turizm Azərbaycanda inkişaf mərhələsindədir: "Hər il yeni-yeni turizm növləri, turizm məkanları fəaliyyətə başlayır. Azərbaycana gələn turistlərin həm sayı artır, həm coğrafiyası genişlənir. Azərbaycandakı sabitlik son illərdə turistləri cəlb edən əsas amillərdən biridir. Turizm elə sahədir ki, bir nəfərin gəlib razı qayıtması növbəti ilə 4-5 nəfərin gəlməsini təmin edir. Bu baxımdan düşünürəm ki, Azərbaycana turist axını yaxın illərdə daha da güclənəcək".

Mütəxəssis deyir ki, yeni agentlik turizm sahəsində dövlət siyasətini daha sürətlə və yeni mərhələyə uyğun həyata keçirəcək: "Düşünürəm ki, işlər daha da sürətlənəcək. Təbii ki, müstəqil bir qurum kimi fəaliyyət imkanları daha geniş olacaq, qərarlar daha çevik qəbul olunacaq. Agentliyin fəaliyyəti sayəsində həm gəlmə, həm getmə, həm daxili turizmdə böyük irəliləyişlərin əldə olunacağını gözləyirəm. Turizm agentlikləri, şirkətlər, turizm üzrə təhsil müəssisələri fəaliyyətlərini daha müasir prinsiplər üzərində qurmalıdılar. Yeni turizm növləri inkişaf etdirilməlidir. Məsələn, Azərbaycanda sağlamlıq turizminin inkişafı üçün böyük potensial var. Lakin bu imkanlardan biz hələ çox az istifadə edirik: Naxçıvanda Duzdağ, Şabranda Qalalatı, Naftalan, Masallıda İstisu. Amma Azərbaycanda 1500-dən çox mineral mənbələr var. Bunlardan səmərəli istifadə olunmalıdır. Bundan əlavə, balıqçılıq, ovçuluq, velosiped, piyada turizmini inkişaf etdirmək olar. Buna Azərbaycanda yaradılan müasir infrastruktur rahat imkan verir. Şimal-Qərbdə Şamaxıdan Balakənə kimi, Şimal-Şərqdə Quba-Qusar-Xaçmaz, Cənubda Lənkəran-Masallıda gözəl infrastruktur qurulub. Bu infrastrukturun potensialından istifadə etmək lazımdır"

M.Ağakərimovun fikrincə, yeni qurum Azərbaycanın turizm potensialını daha dolğun, daha geniş əks etdirməyi bacaracaq: "Turizm iqtisadiyyatın mühüm sahələrindən, gəlir mənbələrindən birinə çevrilməlidir. Buna nail olmaq üçün yeni agentlik fəaliyyətini müasir standartlara uyğun qurmalıdır. Bunun üçün bütün şərtlər var. Biz çalışmalıyıq ki, Azərbaycanı strateji yol xəritəsində nəzərdə tutulduğu müddətdə turizmin inkişaf səviyyəsinə görə dünya 20-liyinə daxil edə bilək".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Müəssisənin bağlanması ilə bağlı qaydalar dəyişdirilir

## Aprelin 23-də Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin iclası keçirilib





**"APA-Economics" xəbər verir ki, iclasda "Müflisləşmə və iflas haqqında" qanunda dəyişiklik layihəsi müzakirə olunub.**

Layihəyə əsasən, dəyəri borclunun aktivlərinin 5% və daha çox hissəsini təşkil edən aktivlərin satılması əmlak inzibatçısı tərəfindən hazırlanan və bu qanunun 48-ci maddəsinin 5-ci hissəsində müəyyən edilmiş qaydada kreditorların yığıncağında təsdiq edilən satış planına uyğun olaraq açıq hərrac yolu ilə və bu qanunun 26-cı maddəsində müəyyən edilmiş hallar olduqda digər üsullarla həyata keçirilir. Dəyəri borclunun aktivlərinin 5%-dən az hissəsini təşkil edən aktivlərinin satılması əmlak inzibatçısı tərəfindən bu qanunun tələbləri nəzərə alınmaqla kreditorlar yığıncağının razılığı olmadan həyata keçirilə və ya satış planına daxil edilməsi təklif olunur.

Borclunun öz əmlak hüquqlarının verilməsinin məhdudlaşdırılması maddəsində də dəyişiklik edilib. Dəyişikliyə əsasən, borclunun iflas prosesinə başlanması məqamından əvvəlki 6 ay ərzində bir kreditoru digər kreditorlara münasibətdə ödənişlərin növbəliliyində üstün vəziyyətə gətirəcək əqdlər bağlandıqda əmlak inzibatçısı borclunun bağladığı əqdlərin mübahisələndirilməsi üçün məhkəməyə müraciət edə biləcək.

Qeyd edək ki, mövcud qanunvericiliyə əsasən, hüquqların verilməsi və ya girov hüququnun yaradılması bu qanunun 2-ci maddəsində göstərilmiş iflas prosesinə başlanılması məqamından əvvəlki 90 gün ərzində həyata keçirildikdə borclu məhkəməyə müraciət edə bilir.

Layihə borclunun ləğv edilməsinə maksimum yol verməmək üçün sağlamlaşdırma tədbirlərinin tətbiqinə imkanlar və mexanizmlər yaratmaq məqsədilə hazırlanıb.



# Dünyanın ən çox qazanan futbolçusu və baş məşqçisi müəyyənləşib

## 2017/2018 mövsümündə dünyanın ən çox qazanan futbolçusu müəyyənləşib

**"Report" "France Football" nəşrinə istinadən xəbər verir ki, bu, Argentina millisinin və İspaniyanın "Barselona" komandasının hücumçusu Lionel Messidir. 30 yaşlı forvardın əməkhaqqı, bonus və reklam gəlirlərində əldə edəcəyi ümumi qazanc 126 milyon avrodur.**

Siyahıda ikinci yerdə Portuqaliya yığmasının və İspaniya "Real Madrid"inin futbolçusu Kriştianu Ronaldu qərarlaşıb. Onun qazancı 94 milyon avro təşkil edir. "Üçlüy"ü Braziliya millisinin və Fransanın PSJ klubunun hücumçusu Neymar qapayır-81,5 milyon avro.

Analoji reytinqdə məşqçilər arasında ilk pilləni İngiltərənin "Mançester Yunayted" komandasının sükanı arxasında olan Joze Mourinyo tutur. Portuqaliyalı mütəxəssisin qazancı 26 milyon avrodur. Çin millisinin italiyalı baş məşqçisi Marçello Lippi 23 milyon avro ilə ikinci sıradadır. Üçüncü yerdə isə İspaniya "Atletiko"sunun argentinalı baş məşqçisi Dieqo Simeone qərarlaşıb. Onun gəliri 22 milyon avrodur.

"Real Madrid"in sükanı arxasında olan fransalı Zinəddin Zidan isə bir mövsümə 21 milyon avro qazanır.

# Soyuq silahların xaricdən qanunsuz yollarla Azərbaycana gətirilməsinin qarşısı alınıb

**"Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bəzi işbazlar yenə də xarici ölkələrdən əzici-vurucu, habelə kəsici-deşici xassəyə malik, istifadəsi insan sağlamlığına ciddi təhlükə törədən mülki dövriyyəsi qadağan edilən vasitələrin - soyuq silahların qanunsuz yollarla respublikamıza gətirilməsinə cəhd göstərirlər. Lakin həyata keçirilən tədbirlər nəticəsində ölkəmizin gömrük orqanları tərəfindən bu kimi halların qarşısı qətiyyətlə alınır".**



Dövlət Gömrük Komitəsi ttp://apa.az/tag/D%C3%B6vl%C9%99t-G%C3%B6mr%C3%BCk-Komit%C9%99sinin Mətbuat Xidmətindən "APA-Economics"ə verilən məlumata görə, son zamanlar Bakı Baş Gömrük İdarəsinin (BBGİ) əməkdaşları tərəfindən xeyli sayda bu kimi faktlar qeydə alınıb: "Belə ki, BBGİ Poçt göndərişlərinə nəzarət bölməsinin əməkdaşlarının cari ilin müvafiq dövrü ərzində həyata keçirdiyi tədbirlər nəticəsində xarici ölkələrdən soyuq silahların qanunsuz yollarla respublikamıza gətirilməsinin qarşısı alınıb, müxtəlif vətəndaşlara göndərilən bağlamalardan ümumilikdə 10 ədəd "beşbarmaq", 5 ədəd dəyənək, 9 ədəd silah hissəsi, 4 ədəd elektroşoker, 48 ədəd ox aşkar edilib".

Bundan başqa, gömrük hüquqpozmalarına qarşı aparılan qətiyyətli mübarizənin nəticəsi olaraq Poçt göndərişlərinə nəzarət bölməsinin əməkdaşları tərəfindən müxtəlif bağlamalarda 18 ədəd nişangah, 50 ədəd kazino daşları, 5 ədəd patrondolduran dəzgah, 1 dəst sualtı ovda istifadə olunan pnevmatik tüfəng, 250 ədəd 5,5 mm kalibrli mərmilər, 98 ədəd siqarlar, 460 həb və 159 ampul tərkibində güclü təsiredici maddələr olan dərman preparatları, 337 həb və 40 ampul psixotrop dərman preparatları aşkarlanıb.

Ümumilikdə 57 belə fakt qeydə alınıb. Onlardan 39 fakt üzrə toplanmış materiallar Nəsimi Rayon Polis İdarəsinə, 9 fakt üzrə toplanmış materiallar DGK-nın İstintaq İdarəsinə göndərilib, 9 fakt üzrə isə hazırda araşdırma aparılır.

YENİ MÜSAVAT

Son səhifə

N 88 (6977) 24 aprel 2018



## Arvadının şikayətlərindən bezib robot plitə yaratdı

Çin sakini arvadının yemək hazırlaya bilmədiyi üçün etdiyi şikayətlərdən bezib robot plitə hazırlayıb. Ölkədəki banket kampaniyalarından birinin baş direktoru olan He Qinq Şanxayda təşkil olunan yeni yarmarkalardan birində öz ixtirasını təqdim edib. Kişi etiraf edib ki, bu alətin hazırlanması üçün 7 il vaxt sərf edib. "Ağıllı robot plitə məni təkcə mətbəx öhdəliklərindən xilas etməyəcək. Eyni zamanda qadınları da yemək hazırlamaq üçün vaxt sərf etməyə qoymayacaq", - deyə o bildirib.

Onun sözlərinə görə, yeni kəşf evdə özünə yer tapan kimi həyat yoldaşı ona şikayətlənməyi dayandırıb.

Dediyinə görə, robot plitə yeməyi üç-dörd dəqiqə ərzində bişirir. Bundan sonra robot öz-özünü yuyur. Yaxın vaxtlarda çinli onu on min yuana kirayəyə verməyə və hər bişirilən yeməyə görə isə 1 yuan almağı planlaşdırır. Çin sosial şəbəkə istifadəçiləri isə bu yeni kəşfi böyük entuziazmla qarşılayıblar. Onu təqdir edənlərlə yanaşı, robot plitənin kəsib-doğrama funksiyasının olmadığını deyənlər də olub. Onların fikrincə, bu, daha çox vaxt aparan bir məqamdır.

# "Titanik"in menyusu 140 min dollara satılıb

**Batmış "Titanik" gəmisindəki birinci nahar menyusu Böyük Britaniyadakı bir auksionda 140 min dollara satılıb. Onu adı açıqlanmayan britaniyalı bir kolleksiyaçı əldə edib. Yemək adlarının əks olunduğu menyunu zamanında ikinci zabit Çarlz Laytoller əldə edib. Bunlar zabitlərə 1912-ci ilin 2 aprel tarixində təqdim olunub. Üzməyə getmədən öncə Laytoller bu menyunu öz həyat yoldaşına təqdim edib. Zabit gəmi batması nəticəsində sağ qalanlardan olub və 1952-ci ildə dünyasını dəyişib. Nahar menyusuna isə ət bulyonu və ya toyuq şorbası, qızardılmış toyuq, quzu əti və ya ispanaqlı dana əti əsas yemək kimi, gül kələmi, soyutma kartoq qarnir kimi, pudinq, saray armudu, pirojna və kofe daxil olub.**


R.M.S. "TITANIC."

APRIL 2, 1912.

HORS D'ŒUVRE VARIÉS

CONSOMMÉ MIRRETTE
CREAM OF CHICKEN

SALMON

SWEETBREADS

ROAST CHICKEN
SPRING LAMB, MINT SAUCE
BRAISED HAM & SPINACH

"Titanik" gəmisi 15 aprel 1912-ci ildə gecə saatlarında, gəminin Aysberqlə toqquşması nəticəsində batıb. Bu, birinci reys zamanı baş verib. Qəza nəticəsində 1500-dən artıq sərnişin dünyasını dəyişib. 712 nəfər "Karpatiya" paroxodu ilə daşınıb və sağ qalıb.

# Çantasındakı almaya görə 500 dollar cərimə ödədi



**Amerika sakinini məzuniyyətdən evinə qayıdarkən bir almaya görə cərimələyiblər. Bu haqda UPI nəşri xəbər verib. Kolorado ştatından olan Kristal Tedlok "Delta" kampaniyasının təyyarəsi ilə Parisdən Koloradoya uçurdu. Təyyarədə olanda onlara nahar üçün içi yeməklə dolu bir qutu veriblər. Kristal həmin qutudan almanı sonradan yemək üçün götürüb. Amma gömrük məntəqəsindən keçərkən ona baqaj daşınması qaydalarını pozduğunu deyiblər. Buna onun çantasında alma olması ilə bağlı daha öncə məlumat verməməsi səbəb olub: "Gömrük işçisi məndən soruşdu ki, Fransa səfəri mənə baha başa gəldimi? Mən heç nə başa düşmədən cavab verdim ki, "hə". O da cavabında mənə dedi ki, səfər mənə daha da baha başa gələcək. Bunun səbəbi isə gömrük qaydalarını pozduğum üçün cərimələndim".**

O, bir alma üçün 500 dollar cərimə ödəyib. Amerikalı qadın bildirib ki, aviakampaniya nümayəndələri onun ABŞ sərhədlərinə daxil olana qədər almanı yeməsi ilə bağlı xəbərdarlıq etməli idilər. "İnsanın belə bir halla üzləşməsi o qədər də xoş deyil. Mənə hansısa bir meyvəyə görə az qala cinayətkar kimi yanaşdılar". - bunu da zərərçəkən qadın deyib.

Amma "Delta" avikampaniyasından bəyan ediblər ki, sərnişinlərə yemək təyyarə daxilində yeməleri üçün verilir və ölkənin gömrük qanunlarının sərt olduğunu hər bir Amerika vətəndaşı bilir. ABŞ gömrük qanunlarına əsasən, bütün qida məhsullarını qeydiyyatdan keçirmək lazımdır. Pozuntuya görə cərimə miqdarı 10 min dollara qədər arta bilər.

## Qoroskop




QOÇ - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz mü-sahiblərinizə bacardığınız qədər güzəştə gedin. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

BUĞA - Müəyyən çalarlarına görə, bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Pul məsələlərində ehtiyatlı olun.

ƏKİZLƏR - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olmayacaq. Ailə-sevgi zəminində isə yeni mərhələyə qədəm qoyacaqsınız.

XƏRÇƏNG - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Günün ikinci yarısı bu baxımdan daha münasibdir.

ŞİR - Əgər ixtiyarınızda olan bu təqvimdən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik görüş və əyləncələr bəxş edəcək. Buna hazır olun.

QIZ - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün əhəmiyyətli vaxtdır. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıq ucu gələn bütün yollara baş vurun.

TƏRƏZİ - Bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

ƏQRƏB - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılığı və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

OXATAN - Yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

OĞLAQ - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

SUTÖKƏN - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla qalan saatları yüksək əhvali-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Axşama yaxın darıxdığınız insanlara baş çəkməyə çalışın.

BALIQLAR - İxtiyarınızda olan bu təqvimdə aktivliyi artırmağınız vacibdir. Bunun öhdəsindən gəlsəniz, ulduzlar sizə yardımçı olacaq. Yaxın adamlarınızdan xəstələnən varsa, mütləq ona baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İnsanlar ölmədən qəbirə girmək istəyir



Ən əcaib xidmətlər yaponlardan çıxır. Bunlardan ən sonuncusu The End of Life - həyatın sonu adlanır. Bu xidmət sayəsində yaponlar ölümə, daha dəqiq desək, dəfn mərasiminə hazırlaşırlar. Təbii ki, yaponlar özlərinin bər-bəzəkli qəbiristanlıqlarında əbədi yuxuya getməyə tələsmirlər. Amma dəfn mərasiminin bütün kədərli qayğıları mərhum yaxınlarının boynuna düşməsin deyə firmalardan biri ilginc xidmət təklif edib. Hər bir şəxs özünün dəfn mərasiminə hazırlaşa bilər. Daha dəqiq desək, bu prosesə öncədən hazırlaşmaq mümkündür. Dəfn mərasiminin bütün atributlarını öncədən hazırlamaq olar: qəbir, məzar və sair. Yaponlara "tunelə girmədən öncə" nələr etmək lazım gəldiyini seminarda öyrədirlər. Bunu isə ölkənin bu sahə üzrə ixtisaslaşmış kampaniyası olan Aeon Co həyata keçirir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100